BAKU WATER WEEK CONFERENCE

# BAKI SU HƏFTƏSİ BEYNƏLXALQ KONFRANSI

# BAKU WATER WEEK INTERNATIONAL CONFERENCE

## 13 | 14 MART / MARCH 2024

The Ritz-Carlton, Baku

# KONFRANSIN MATERİALLARI
# CONFERENCE HANDBOOK

# HİDROLOQ

## Elmi-Tədqiqat, Layihə və Məsləhət Xidmətləri

- Baş Layihəçi funksiyası
- Hidrologiya
- Axının Hidravlikası
- Hidrotexniki qurğular
- Meliorasiya qurğuları
- Su təchizatı və Kanalizasiya sistemi qurğuları
- Mühəndis kommunikasiya sistemləri
- İnşaat konstruksiyaları və Memarlıq həlləri
- Smeta və Tikintinin Təşkili

**20 il SİZİNLƏ**

**"HİDROLOQ" Məhdud Məsuliyyətli Cəmiyyəti**

*Az1102, Bakı şəhəri, Tbilisi prospekti, 1058-ci məhəllə, bina 34.*

*Tel.: +994 12 530 84 57; e-mail: info@hidroloq.az; www.hidroloq.az*

BAKU WATER WEEK CONFERENCE

Təşkilatçılar Bakı Su Həftəsi Beynəlxalq Konfransına göstərdikləri dəstəyə görə bütün dövlət strukturlarına, sponsorlara, tərəfdaşlara, kütləvi informasiya vasitələrinə və iştirakçılara öz dərin minnətdarlığını bildirirlər.

The organisers would like to thank all the state bodies, sponsors, partners, representatives of mass media for their support and commitment to the Baku Water Week International Conference.

## DƏSTƏK / SUPPORT

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi

Azerbaijan State Water Resources Agency

## TƏŞKİLATÇILAR / ORGANISERS

ceo caspian event organisers

## QIZIL SPONSORLAR / GOLD SPONSORS

ACWA POWER
Agro Food Investments
GEO-SU GROUP
HİDROLOQ

## GÜMÜŞ SPONSORLAR / SILVER SPONSORS

Coca-Cola
IDE Technologies Your Water Partners
KBT Körpü-Bina-Tikinti

## BÜRÜNC SPONSORLAR / BRONZE SPONSORS

AZTƏSƏRRÜFAT
KOLİN
ÖZGÜN İNŞAAT
QARABAĞ-ER

## KONSALTİNQ ÜZRƏ TƏRƏFDAŞ / CONSULTING PARTNER

MEKOROT Israel National Water Co.

## RƏSMİ MEHMANXANALAR / OFFICIAL HOTELS

HYATT REGENCY BAKU
ibis
Radisson BAKU

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ / TRAVEL PARTNER

GREENWICH TRAVEL CLUB

# Agro Food INVESTMENTS

Agro Food Investments MMC (AFI) Azərbaycanın aparıcı aqrar və qida şirkətlər qrupundan biridir. AFİ bu sahədə fəaliyyət göstərən bir neçə şirkəti və onların istehsalat sahələrini, o cümlədən, fındıq emalı müəssisəsi, badam emalı müəssisəsi, zeytun yağı istehsalı müəssisəsi, ting və calaqaltı istehsalı müəssisəsi, uçucu yağlar emalı müəssisəsi, açıq və qapalı şəraitdə gül yetişdirilməsi və emalı, çay emalı müəssisəsi və çay plantasiyaları, istixana şəraitində pomidor yetişdiriciliyi, minlərlə hektar fındıq, badam, zeytun və qarışıq meyvə bağlarını idarə edir.

Bunlarla yanaşı, qrup, dəyər zəncirinin bir neçə mərhələsində təmsil olunmaqla, logistika, saxlanc xidməti, quru və soyuducu kameralar, laboratoriyalar kimi tamamlayıcı biznes sahələrinə daxil olmuş, keyfiyyət və dayanıqlılığı təmin etməyi hədəfləmişdir.

Bizim strateji baxışımız texnologiya yönümlü, təbiət dostu, dayanıqlı istehsal və xidmətlərlə, bütün tərəfdaşlarımıza dəyər yaratmaqla, müxtəlif bazarlar-da etibarlı aqro-qida tərəfdaşı olmaqdır.













Daxil olan şirkətlər:

Grand Agro · azbadam · Lecheq Farm & Distillery · AzRose · GRAND AGRO IN VITRO · AGRARCO · Agropark · agrovest · ASTARAÇAY MADE IN AZERBAIJAN

Daxil olan brendlər:

Naturall™ · OLIVEA OLIVE PRODUCTS · FİLLİ TEA YÜKSƏK KEYFİYYƏT · AZTEA MADE IN AZERBAIJAN

agrofoodinvest.az

# MÜNDƏRİCAT | CONTENT

SALAMLAMA MƏKTUBLARI
WELCOME LETTERS 5

SPONSORLARIN SİYAHISI
LIST OF SPONSORS 11

MƏRUZƏÇİLƏRİN TƏRCÜMEYİ-HALLARI 17

İŞTİRAKÇILARIN TƏQDİM ETDİKLƏRİ MƏLUMAT 45

SPEAKERS' BIOGRAPHIES 51

PARTICIPANTS' DESCRIPTIONS 75

Forum materiallarında istifadə edilən iştirakçı şirkətlər haqqında məlumat, həmin şirkətlər və ya müəssisələr tərəfindən təqdim olunmuşdur. Forumun təşkilatçısı olan CEO bu məlumatın düzgün olmasına dair heç bir məsuliyyət daşımır.

Company descriptions within the handbook are provided by the participating companies. The organiser, CEO can not be held responsible for the accuracy of this information.

# Refresh the world and make a difference




Coca-Cola is a global beverage company with products sold in over 200 countries, aiming to refresh the world and make a difference. The company started its operations in Azerbaijan in 1994 with the establishment of "Azerbaijan Coca-Cola Bottlers", part of Coca-Cola Içecek, Turkey-based multinational beverage company, and has since produced and sold popular brands like Coca-Cola, Fanta, Sprite, Bonaqua, Cappy, and Fuse Tea. Employing nearly **400 people**, Coca-Cola Azerbaijan also supports over **5000 jobs** through its supply chain and has invested over **$3 million** in community projects for waste reduction, water replenishment and empowerment of women and youth.

BAKU WATER WEEK CONFERENCE

# SALAMLAMA MƏKTUBLARI
# WELCOME LETTERS



Hörmətli xanımlar və cənablar!
Sərgi və konfrans iştirakçıları!

Sizi böyük məmnunluqla salamlayır, Bakı Su Həftəsi çərçivəsində təşkil olunan Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransına maraq göstərdiyinizə görə təşəkkür edir və işlərinizdə uğurlar arzulayıram.
İnanıram ki, Bakı Su Həftəsi hökumət qurumları ilə yanaşı, özəl sektora, mütəxəssislərə yeni ideyalar əsasında problemlərin həlli üçün innovativ üsullar tapmaq imkanı yaradacaqdır. Bakı Su Həftəsi çərçivəsində təşkil olunan konfransda panel müzakirələri su ehtiyatlarının idarə edilməsi, su təchizatı və bununla bağlı digər mövzular üzrə problemlərin aradan qaldırılması üçün əlverişli platforma olacaqdır. Müzakirə zamanı praktik həllərin işlənib hazırlanması, eləcə də su ehtiyatlarının davamlı istifadə edilməsi və idarə olunmasının vacibliyi barədə ictimaiyyətin məlumatlandırılmasına da kömək edəcəkdir.
Nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycanın su infrastrukturunun yaxşılaşdırılması dövlətin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Su təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerüstü və yeraltı su ehtiyatları yenidən qiymətləndirilir, su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi və içməli su təchizatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.
44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində 30 il ərzində düşmənin nəzarətində qalan ərazilərimiz işğaldan azad olundu. Hazırda işğaldan azad edilmiş ərazilərdə yeni su anbarları tikilir və mövcud olan su obyektləri əsaslı şəkildə bərpa olunur. Su layihələrinin reallaşdırılması Qarabağa həyat verəcək. Bu layihələr, eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıb.
Bakı Su Həftəsi yeni təşəbbüslər və səmərəli işgüzar əlaqələrin qurulması, ölkəmizin su təsərrüfatının inkişafına yeni töhfələr verəcəkdir.
Ümid edirəm ki, Bakı Su Həftəsi çərçivəsində hər birinizə yeni imkanlar yaranacaq və qarşılıqlı əməkdaşlıqlar qurulacaqdır. Bir daha hər birinizə sərgi və konfransın işində uğurlar arzulayıram.

Hörmətlə,

Zaur Mikayılov
Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

**AZERBAIJAN STATE WATER RESOURCES AGENCY**

Dear ladies and gentlemen!
Exhibitors and conference participants!

It is my great pleasure to welcome you! Thank you for your interest in the International Exhibition and Conference for Water Management organised within the framework of Baku Water Week, and I wish you success in your work.

I believe that Baku Water Week will provide public organisations, the private sector, and experts with an opportunity to search for innovative ways to solve problems based on new ideas. The panel discussions organised during the conference as part of Baku Water Week will provide a convenient platform to discuss water management, water supply, and other related issues.

The discussion will also help to develop practical solutions and inform the public about the importance of sustainable use and management of water resources.

I would like to draw your attention to the fact that the improvement of Azerbaijan's water infrastructure is one of the priority areas of the government's social and economic policy.

Thanks to the glorious victory achieved in the 44-day Patriotic War, our territories were liberated from occupation after 30 years of being under the enemy's control. At present, new water reservoirs are being built in the liberated territories and existing water bodies are being overhauled. The implementation of water projects will bring life to Karabakh. Meantime, these projects are designed to improve the living conditions of former IDPs, increase employment, and ensure food security in the country.

Baku Water Week will ensure the emergence of new initiatives and effective business relations, making a new contribution to the development of the water sector in our country.

I hope that within the framework of Baku Water Week, each of you will enjoy new opportunities and establish cooperation with each other.

Once again, I wish each of you success in the work of the exhibition and the conference.

Sincerely,

Zaur Mikayilov,
the Chairman of the Azerbaijan State Water Resources Agency



Hörmətli sərgi və konfrans iştirakçıları!

Təşkilatçılar adından sizi ölkəmiz və region üçün mühüm olan, "Bakı Su Həftəsi 2024" – Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransında salamlayırıq!
Ölkə rəhbərliyi tərəfindən ətraf mühitin qorunmasına və su ehtiyatlarına səmərəli istifadəsinə yönəlmiş geniş tapşırıqlar və məqsədlər qoyulmuşdur. Əlamətdar bir hadisədir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü ili Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir.
Təşkil olunan Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı da 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində öz töhvəsini verəcəkdir. Həmçinin, 2024-cü ilin noyabr ayında Bakı şəhərində iqlim dəyişikliyi məsələlərinin qlobal müzakirəsi üçün daha bir mühüm platformanı təmsil edən "COP29" konfransı keçiriləcəkdir. Belə irimiqyaslı tədbirlərin keçirilməsi qlobal səviyyədə iqlim dəyişikliyi sahəsində inkişaf vektorlarının müzakirəsi üçün unikal imkan yaradacaq.
Eyni zamanda Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı bizim üçün ekoloji və davamlılıq məsələlərini birgə gündəmə gətirmək və müzakirə etmək üçün əla fürsətdir və bu prosesdə sizin töhfəniz və təcrübəniz çox dəyərli olacaqdır.
Su ehtiyatlarının idarə edilməsi, suyun duzsuzlaşdırılması, su təchizatı və kanalizasiya, su təsərrüfatı obyektlərinin layihələndirilməsi və tikintisi və bir çox digər sahələrdə ən son texnologiyaların nümayiş olunacağı debüt sərgi və konfransda 16 ölkədən 90-a yaxın şirkət iştirak edir.
Əminik ki, bu sərgi və konfransda əldə etdiyiniz təcrübə və biliklər davamlı su ehtiyatların idarəçilik sahəsində strategiyaların müzakirəsi və həyata keçirilməsi üçün əhəmiyyətli rol oynayacaqdır.
Fürsətdən istifadə edərək, region üçün əlamətdar olan bu sərgi və konfransın keçirilməsində göstərdiyi etimada və dəstəyə görə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə dərindən təşəkkürümüzü bildiririk.
Bütün iştirakçılara uğurlu və məhsuldar görüşlər, həmçinin uğurlu tərəfdaşlıq qurmağa arzu edirik. Su təsərrüfatının inkişafına verdiyiniz töhfəyə görə sizə təşəkkür edirik!

Ən xoş arzularla,

Fərid Məmmədov,
"Caspian Event Organisers" şirkətinin baş direktoru

Dear participants of the exhibition and conference,

On behalf of the organisers, I welcome you to "Baku Water Week 2024," The International Exhibition and Conference for Water Management, which is of great importance for our country and the region.
The leadership of the country has set major tasks and goals aimed at environmental protection and efficient use of water resources. A significant event is the announcement by the President of the Republic of Azerbaijan Ilham Aliyev that 2024 is the "Green World Solidarity Year" in Azerbaijan. The International Exhibition and Conference for Water Management will also contribute to the 2024 "Green World Solidarity Year".
In November 2024, Baku will also host the "COP29" conference, which is another important platform for global discussion of climate change issues. Holding such large-scale events will create a unique opportunity to discuss vectors of development in the field of climate change at the global level.
Meanwhile, the International Exhibition and Conference for Water Management is a great opportunity for us to raise and discuss environmental and sustainable development issues together. Therefore, your contribution and expertise in this process will be very valuable.
Around 90 companies from 16 countries are taking part in the debuting exhibition and conference, which will showcase the latest technologies in water management, desalination, water supply and sewerage, waterworks design and construction, and many other fields.
We are confident that the experience and knowledge you will gain from this exhibition and conference will play an important role in discussing and implementing strategies for sustainable water resources management.
We would like to take this opportunity to express our deep gratitude to the Azerbaijan State Water Resources Agency for their trust and support in organising this important exhibition and conference for the region.
We wish all participants successful and fruitful meetings, as well as the establishment of successful partnerships. Thank you for contributing to the development of water management.

Best regards,

Farid Mammadov
General Director of Caspian Event Organisers




# "KBT" MMC
# Gələcəyə hazır!

## 22 İLDİR SİZİNLƏ

Biz, şirkətin strateji istiqamətində dönüş nöqtəsi yaradan, KBT-ni daha çevik, daha məhsuldar və daha yaxşı mövqeyə sahib təşkilata çevirən, iqlim dəyişikliyi və şəhər tıxacları kimi qlobal çətinliklərlə mübarizə apara bilən, və ən əsası cəmiyyətə daha faydalı və davamlı inkişaf həlləri təklif edə bilən yeni əməkdaşlıq strategiyasına start verdik. Yeni məqsədimiz, daim hərəkətdə olan ölkəmiz üçün daha səmərəli, davamlı və "gələcəyə hazır" infrastrukturun inkişafına töhvə verən qabaqcıl təşkilat olmaqdır.

WWW.KBT.AZ

KBT
KÖRPÜ-BİNA-TİKİNTİ

BAKU WATER WEEK CONFERENCE

# SPONSORLARIN SİYAHISI
# LIST OF SPONSORS

## QIZIL SPONSORLAR / GOLD SPONSORS

GOLD SPONSORS

### ACWA POWER

**DELEGATE BAGS SPONSORSHIP**

The One Tower, 41st Floor,
Barsha Heights, Sheikh Zayed Road,
P.O. Box 30582, Dubai
United Arab Emirates
Tel.: + 971 4 248 0800
Fax: + 971 4 385 9625
www.acwapower.com

### AGRO FOOD INVESTMENTS LLC

**CONFERENCE FLASH CARD SPONSORSHIP**

Heydar Aliyev avenue 106A, AZ1010,
Baku, Azerbaijan
Tel.: +994 12 504 80 00
Mob.: +994 51 683 85 45
www.agrofoodinvest.az

### GEO-SU GROUP LLC

**ONLINE REGISTRATION SPONSORSHIP OF EXHIBITION**

Heydar Aliyev Avenue 115, Sport plaza
Baku, Azerbaijan
Mob.: +994 50 444 14 74
E-mail: office@geosugroup.com
www.geosugroup.com

### HIDROLOQ LLC

**CONFERENCE FOLDERS SPONSORSHIP**

Tbilisi ave., block 1058, building 34, AZ 1102
Baku, Azerbaijan
Mob.: +994 50 285 80 26
E-mail: info@hidroloq.az
www.hidroloq.az

## GÜMÜŞ SPONSORLAR / SILVER SPONSOR

SILVER SPONSORS

### COCA-COLA MESHRUBAT PAZARLAMA DANISHMANLIK SAN. VE TIC. A.SH

**OFFICIAL DRINK**

25 Nobel avenue, BWC 7st floor. AZ 1025
Baku, Azerbaijan
Tel: +994 55 213 75 05
E-mail: namirova@coca-cola.com

### IDE TECHNOLOGIES

**CONFERENCE SESSION SPONSORSHIP**

Hamatechet Street
Kadima, Israel
Mob.: +972 524 446 526
E-mail: chenr@ide-tech.com
www.ide-tech.com

### KORPU-BINA-TIKINTI LLC

**CONFERENCE SESSION SPONSORSHIP**

Narimanov, Ahmad Rajabli Street 2/1
Baku, Azerbaijan
Mob.: +994 50 598 69 88
E-mail: office@kbt.az
www.kbt.az

## KONSALTİNQ ÜZRƏ TƏRƏFDAŞ / CONSULTING PARTNER

### MEKOROT WATER COMPANY

**CONSULTING PARTNER**

Landmark III, Nizami str.90A
Baku, AZ1010, Azerbaijan
E-mail: Info.baku@bcg.com
www.bcg.com

## BÜRÜNC SPONSORLAR / BRONZE SPONSORS

### AZTƏSƏRRÜFAT

**CONFERENCE SESSION SPONSORSHIP**

Keshla, 4th district 217, AZ1031
Baku, Azerbaijan
Tel.: +994 50 800 10 08
E-mail: director@azteserrufat.com
www.azteserrufat.com

### KOLIN CONSTRUCTION

**SPONSORSHIP OF PRESS-CONFERENCE**

Nasimi district, Azer Aliyev str. 6, AZ 1078
Baku, Azerbaijan
Tel.: +994 12 377 00 10
E-mail: azerbaijanhq@kolin.com.tr
www.kolin.com.tr

### QARABAG- ER LLC

**BRONZE SPONSOR**

Tartar district, V.Khasanov 14,AZ5900
Tartar, Azerbaijan
Tel: +994 50 406 00 00
E-mail: qarabag_ermmc@mail.ru

### OZGUN INSHAAT TAAHUT SANAYI VE TICARET LTD - AR BRANCH

**EXHIBITION PAPER BAGS SPONSORSHIP**

3161 District, General İ. Hamidov Street, No: 31 / 5,
1006 Yasamal
Baku, Azerbaijan
Mob.: +994 51 270 93 14
E-mail: zamilatarverdiyeva@ozguntr.com
www.ozguntr.com

# BAKU WATER WEEK

## INTERNATIONAL EXHIBITION FOR WATER MANAGEMENT

## 4 | 5 | 6 MARCH 2025

BAKU EXPO CENTER - BAKU, AZERBAIJAN

www.bakuwaterweek.az

bakuwaterweek.az #BakuWaterWeek bakuwaterweek

Organisers:

ceo caspian event organisers

caspian event management

Tel. : +994 12 404 10 00
Mob. : +994 77 277 70 19
E-mail : bww@ceo.az







# Kolin Construction

Kolin Construction has been doing business in Azerbaijan since 2006. Kolin is an integral part of Koloğlu Holding, which is one of the largest holdings in Türkiye and has been implementing large projects worldwide since 1977.

We have undersigned many successful projects that contributes to civilization in the reclamation and water management sector, from the water engineering facilities construction to the provision of efficient use of water and water resources, and in a broad array of construction areas.

We have successfully implemented many projects in the Water Management Facilities, Renewable Energy, including Solar and Hydro Electric Power Plants, Infrastructure Constructions, Thermal Power Plants, Industrial Facilities, Ports and Offshore Platforms.













KOLIN CONSTRUCTION

WWW.KOLIN.COM.TR

BAKU WATER WEEK CONFERENCE

# MƏRUZƏÇİLƏRİN TƏRCÜMEYİ-HALLARI



## ZAUR MİKAYILOV

**SƏDR**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Zaur Rauf oğlu Mikayılov 1974-cü ildə Şamaxı rayonunda anadan olmuşdur. O, 1999-cu ildə Türkiyənin Boğaziçi Universitetinin "Biznesin idarə olunması" fakültəsini bitirmiş, 1999-2009-cu illərdə Telekommunikasiya sahəsində Mobil operatorlarda Marketinq meneceri, Baş kommersiya müdiri, Baş direktor müavini vəzifələrində çalışmışdır.
2009–2016-cı illərdə Paşa İnşaat şirkətində Obyektlərin İstismarı, Biznes Mərkəzinin Baş meneceri, Daşınmaz Əmlakın idarə olunması departamentində Baş menecer, 2016–2018-ci illərdə "Agro Dairy" MMC-də Baş menecer, 2018-2021-ci illərdə Azərbaycan Supermarket MMC-də İcraçı direktor vəzifələrində çalışmışdır.
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə Zaur Rauf oğlu Mikayılov 05 aprel 2021-ci ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri, 30 mart 2023-cü ildə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilmişdir.
Ailəlidir, üç övladı var.

---



## MƏCNUN MƏMMƏDOV

**AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRİ**

Məcnun Qadir oğlu Məmmədov 1983-cü ildə anadan olub.
2000-2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Mühasibat uçotu və audit ixtisası üzrə bakalavr, 2004-2006-cı illərdə Pakistan İslam Respublikasının Lahor İdarəetmə Elmləri Universitetində Biznesin təşkili və idarəedilməsi ixtisası üzrə magistr təhsili alıb. 2017-ci ildə Amerikan Xüsusi Biznes və Təcrübə Təlimi Proqramı (SABIT) üzrə Aqrobiznesdə İnnovasiya və Effektivlik mövzusunda təlim proqramını müvəffəqiyyətlə bitirib.
Əmək fəaliyyətinə 2002-ci ildən qida sektorunda başlayıb. 2007-2010-cu illərdə "Deloitte & Touche" LLC-də Maliyyə Məsləhət Xidmətləri üzrə məsləhətçi, 2010-2011-ci illərdə "AER" MMC-də, 2011-2015-ci illərdə "Modern Group of Companies" MMC-də Biznesin inkişafı üzrə direktor, 2015-2018-ci ilərdə "PMD Group" MMC-də Satış, marketinq və biznesin inkişafı və İnvestisiya və biznesin inkişafı üzrə direktor, Kənd təsərrüfatı portfeli üzrə icraçı direktorun birinci müavini, 2018-2023-cü illərdə "Agro Food Investments" MMC-nin İdarə Heyətinin sədri, baş icraçı direktoru vəzifələrində çalışıb.
Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 aprel tarixli Sərəncamı ilə Kənd Təsərrüfatı naziri vəzifəsinə təyin edilib.
İngilis, türk və rus dillərini bilir.
Ailəlidir, iki övladı var.

---



## UMAYRA TAĞIYEVA

**NAZİR MÜAVİNİ**
**AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ**

Umayra Rauf qızı Tağıyeva 1968-ci ildə anadan olub.
Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib.
1990-1992-ci illərdə Dövlət Hidrometeorologiya Komitəsində sinoptik və mühəndis, 1993-2001-ci illərdə Hidrometeorologiya Xidmətində şöbə rəisi, 2001-2015-ci illərdə ETSN, Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunda direktor, 2018-ci ildə ETSN Ekoloji Təbliğat Şöbəsində müdir, Milli Hidrometeorologiya Departamentində direktor, 2020-2023-cü il tarixlərində Milli Hidrometeorologiya Xidmətində rəis vəzifələrində işləyib.
4 mart 2023-cü il tarixindən Ekologiya və Təbii Sərvətlər nazirinin müavinidir.
2009-cu ildə "Əməkdar mühəndis" fəxri adı verilib. 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə III dərəcəli "Əmək" ordeni ilə təltif olunub.
Ailəlidir, bir övladı var.



## SARVAN CƏFƏROV

**NAZİR MÜAVİNİ**
**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

Sarvan Elxan oğlu Cəfərov 1985-ci ildə anadan olub.
2003-2007-ci illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində Politologiya ixtisası üzrə bakalavr, 2008-2010-cu illərdə magistr təhsili alıb. 2012-2015-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Biznesin təşkili və idarəolunması ixtisası üzrə magistr təhsili alıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə" Dövlət Proqramı çərçivəsində 2015-2017-ci illərdə Avstriya Respublikasının Vyana şəhərində yerləşən Beynəlxalq Anti-Korrupsiya Akademiyasında Anti-Korrupsiya elmləri üzrə magistr təhsili alıb.
2009-2012-ci illərdə Əmlak Məsələləri Dövlət Komitəsinin 3 saylı ərazi şöbəsində məsləhətçi, 2012-2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədrinin köməkçisi, 2018-2019-cu illərdə Azərbaycan Respublikasının Kənd təsərrüfatı nazirinin köməkçisi, 2019-2020-ci illərdə Kənd təsərrüfatı nazirinin müşaviri, 2020-ci ilin mart-iyul aylarında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri vəzifələrində çalışıb.
Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli Sərəncamı ilə Kənd təsərrüfatı nazirinin müavini vəzifəsinə təyin edilib.
İngilis və rus dillərini bilir.
Ailəlidir, üç övladı var.

---



## ZAKİR QULİYEV

**NÜMAYƏNDƏ**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Zakir Bəybala oğlu Quliyev 1966-cı ildə anadan olub.
1991-ci ildə Novoçerkask Mühəndis Meliorasiya İnstitutunu, 2003-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib.
1986-1991-ci illərdə Azərbaycan Respublikası Kənd Tikinti İstehsalat Birliyinin Sabirabad 8 saylı İxtisaslaşdırılmış Səyyar Mexanikləşdirilmiş dəstəsində fəhlə, iş ustası, mühəndis, baş mühəndis, 1991-1998-ci illərdə həmin idarənin rəisi vəzifəsində işləyib. 1998 - 2006-cı illərdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində (əvvəllər Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi) Sabirabad Suvarma Sistemləri İdarəsinin və Kür-Araz çaylarında Bəndlərin istismarı idarəsinin rəisi vəzifələrində işləyib. 2006-cı ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavinidir.
Meliorasiya və su təsərrüfatının inkişafı sahəsindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb. 2018-ci ildə III dərəcəli "Əmək" ordeni ilə təltif edilib.
Ailəlidir, üç övladı var.

---



## ƏSƏD ŞİRİNOV

**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Əsəd Əli oğlu Şirinov 1975-ci ildə anadan olub.
1998-ci ildə Boğaziçi Universitetini bitirib.
O, karyerasına 1999-cu ildə Coca-Cola şirkətində başlayıb və 23 il ərzində davamlı şəkildə irəliləyərək 5 ölkənin baş regional direktoru vəzifəsinə qədər yüksəlib. Son 2 ildə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyində sədrin müşaviri vəzifəsində çalışır.
Hazırda Əsəd Şirinov su ehtiyatlarının səmərəli və təhlükəsiz idarə olunması üçün əsas elementlərin müəyyənləşdirilməsinə fəal töhfə verir, ölkədə davamlı inkişaf məqsədlərinə nail olmaq istiqamətində çalışır. O, həmçinin bütün əsas maraqlı tərəflər, cəmiyyət və su istifadəçiləri arasında resurslardan səmərəli istifadə haqqında məlumatlılığın artırılmasında, eləcə də geniş miqyaslı tərəfdaşlıqların aparılmasında fəal rol oynayır.



## PROF. LÜTFİ AKCA

**TÜRKİYƏ SU İNSTİTUTUNUN BAŞ DİREKTORU, ÜMUMDÜNYA SU ŞURASININ ÜZVÜ**

Professor Lütfi Akça 1958-ci ildə Çorumda anadan olub. 1981-ci ildə İstanbul Texniki Universitetinin (İTU) İnşaat fakültəsini inşaat mühəndisi ixtisası üzrə təhsil alıb. Akademik karyerasına elə həmin il BTİ-nin Ətraf Mühit Mühəndisliyi kafedrasında başlayıb, daha sonra1988-ci ildə Ətraf Mühit Mühəndisliyi üzrə fəlsəfə doktoru, 1990-cı ildə dosent elmi dərəcəsini almışdır. 1992-ci ildə ABŞ-ın Kornell Universitetində bir il ətraf mühit sahəsində tədqiqatlar aparmışdır. 2001-2007-ci illərdə BTİ-nin Ətraf Mühit Mühəndisliyi kafedrasının professoru və müdiri vəzifələrində çalışıb.
Bir çox doktorluq, namizədlik dissertasiyaları və elmi tədqiqat layihələrinə rəhbərlik etmiş, bir çox tədqiqat layihələrində iştirak etmişdir. Beynəlxalq və milli səviyyədə məqalələr, referat və kitab dərc etdirmiş, kitab və tərcümə redaktoru vəzifələrində çalışmışdır.
Akademik tədqiqatlarla yanaşı, İSKİ, bələdiyyələr, Ətraf Mühit və Meşə Nazirliyi, TÜBİTAK-Marmara Tədqiqat Mərkəzi kimi dövlət qurumlarına və özəl sektora ətraf mühitə dair məsələlər barədə (su, tullantı suları, ətraf mühitə təsirin qiymətləndirilməsi, tullantıların idarə edilməsi) töhfələr vermiş, bir çox tətbiq layihələrini idarə etmiş və ya bu layihələrdə iştirak etmişdir.
O, 2010-cu ildə Ekologiya və Meşə Təsərrüfatı Nazirliyinə, 2011-ci ildə isə Meşə və Su İşləri Nazirliyinə müşavir vəzifəsinə təyin edilib və 2016-cı ilin fevral ayına qədər bu vəzifəni davam etdirib.
O, 2016-cı ilin fevralından 2018-ci ilin iyuluna qədər Baş nazirin müşaviri vəzifəsində çalışıb. 2016-cı ilin aprel ayında Türkiyə Su İnstitutunda (SUEN) Baş Məsləhətçi vəzifəsinə təyin edilib. Prezidentin 2018/196 saylı Qərarı ilə Prezident yanında Yerli İdarəetmə Siyasətləri Şurasının üzvü təyin edilib.
O, 2022-ci ilin may-noyabr ayları arasında Dövlət Su Təsərrüfatı İdarəsinin (DSİ) baş direktoru vəzifəsində çalışıb. O, 2022-ci ilin dekabrından Ümumdünya Su Şurasının Qubernatorudur. O, Prezidentin 19 aprel 2023-cü il tarixli Sərəncamına əsasən SUEN-in prezidenti vəzifəsinə təyin edilib.

---



## BALARƏHİM QULİYEV

**SƏDR MÜAVİNİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

Balarəhim Mirzəağa oğlu Quliyev 1967-ci ildə anadan olub.
Azərbaycan Dövlət Tibb Universitetində Qidalanma Gigiyenası üzrə sanitariya həkimi ixtisası istiqamətində təhsil alıb. 1992-2005-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı şəhər Gigiyena və Epidemiologiya Mərkəzində Qida gigiyenası həkimi vəzifəsində çalışıb. 2005-2010-cu illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olub. 2010-2014-cü illərdə özəl tibb şirkətində biznesin inkişafı üzrə menecer və direktor müavini, 2014-2015-ci ilin aprel ayınadək Suraxanı Tibbi Bərpa Mərkəzində direktor, 2015-ci ilin aprel ayından 2018-ci ilədək Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətində rəis müavini, 21 yanvar 2018-ci il tarixindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Təftiş və dövlət nəzarəti şöbəsinin müdiri vəzifələrində çalışıb. 9 iyul 2018-ci il tarixindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini vəzifəsinə təyin edilib. Dövlət Qulluğunun kiçik müşaviridir. Ailəlidir, bir övladı var.

---



## HİKMƏT MƏMMƏDOV

**İDARƏ HEYƏTİNİN SƏDR MÜAVİNİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ (KOBİA)**

Hikmət Zakir oğlu Məmmədov 1977-ci ildə anadan olub. 2003-2009-cu illərdə Moskva Dövlət Açıq Universitetində Hüquqşünas ixtisası üzrə təhsil alıb. 1997-1999-cu illərdə "MİRAL" Assosiasiyasında müfəttiş, 1999-2008-ci illərdə Bakı şəhəri, Yasamal rayonu üzrə Əmək və Məşğulluq Mərkəzində müfəttiş, mütəxəssis, məsləhətçi, aparıcı məsləhətçi, baş məsləhətçi, 2008-2012-ci illərdə Bakı şəhəri Sabunçu və Qaradağ rayonları üzrə əhalinin sosial müdafiəsi mərkəzlərinin direktor müavini, 2019-2021-ci illərdə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində Daxili nəzarət departamentinin müdir müavini, müdiri və Biznesə xidmətlər departamentinin müdiri vəzifələrində çalışıb. Bir sıra xarici ölkələrdə təşkil edilmiş təlim və seminarlarda iştirak edib. 16 noyabr 2021-ci il tarixindən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin olunub. Rus və türk dillərini bilir. Ailəlidir, bir övladı var.



## OLCAY ÜNVER

**PROFESSOR**
**ARİZONA DÖVLƏT UNİVERSİTETİ**

30 ildən çox davam edən iş təcrübəsi olan Olcay Ünver BMT-Su üzrə sədr müavini vəzifəsində çalışıb, FAO-nun su proqramlarını və fəaliyyətlərini idarə edib və UNESCO-nun Dünya Su Qiymətləndirmə Proqramına rəhbərlik edib.

Olcay Ünver Ohio ştatındakı Kent Dövlət Universitetinin fəxri professoru, Türkiyə Cənubi-Şərqi Anadolu Layihəsinin (GAP) Prezidenti olub. Bu layihə IWRA Millennum Mükafatına layiq görülüb. 1999-cu ildə Time jurnalı onu "Avropa Vizyonerləri" arasında 19 nəfərdən biri kimi siyahıya alıb. O, Su Şurasının xidmət medalı kimi bir çox mükafatlara sahibdir. Ünver IWRA-nın baş katibi və Avropa üzrə vitse prezidenti kimi vəzifələrdə çalışıb. Pekində 2023-cü ilin sentyabr ayında keçirilmiş 18-ci Dünya Su Konqresində ona verilmiş məşhur IWRA Kristal Damla Mükafatının laureatıdır.

Olcay Ünver hal-hazırda Arizona Dövlət Universitetində Ətraf mühit və Resursların İdarəedilməsi Proqramında professor və Wrigley Global Gələcək Laboratoriyasında aparıcı alim, həmçinin Su Siyasəti Qrupunun üzvü, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və UNESCO-nun baş məsləhətçisi kimi fəaliyyət göstərir.

---



## KALLUM KLENÇ

**BAŞ İCRAÇI DİREKTOR**
**BEYNƏLXALQ SU RESURSLARI ASSOSİASİYASI**

Callum Clench London Universitetinin Birkbeck Kollecində "Biznes strategiyası, siyasət və ətraf mühit" üzrə magistr dərəcəsinə malikdir və burada bir neçə il həm bakalavr, həm də aspirantura pilləsində "Ətraf mühitin idarə edilməsi və biznes" mövzusunda qiyabi mühazirələrlə çıxış edib.

2016-cı ilin fevral ayında IWRA-da icraçı direktor kimi fəaliyyətə başlayıb.

O, su və iqtisadi inkişafa xüsusi diqqət yetirməklə, davamlı inkişaf və biznes təcrübələri üzrə siyasi ekspertdir. Əvvəllər o, London İmperial Kollecində yerləşən Climate-KIC-də üç il işləyib. Callum, KIC-in Böyük Britaniyada həyata keçirilən layihələri üzrə Avropadan olan tərəfdaşlarla işləyib.

2010-2012-ci illərdə o, Fransada Ümumdünya Su Şurasının (WWC) siyasət üzrə məsləhətçisi olub, su və yaşıl inkişaf, ekosistem xidmətləri, su-qida-enerji əlaqəsi və Afrikada inkişaf üzrə su layihələrini idarə edib. WWC-dən sonra o, 2012-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (OECD) su və yaşıl inkişaf hesabatının həmmüəllifi olub.

Callum Clench birbaşa Baş Nazirin Ofisinə hesabat verən Böyük Britaniyanın Davamlı İnkişaf Komissiyasında işləyib. O, illik "Hökumətdə Dayanıqlı İnkişaf" hesabatının müəllifi olub və konstruktiv rəy bildirərək hökumət departamentlərinin fəaliyyət planlarına qarşı davamlı inkişaf tərəqqisini qiymətləndirib.

---



## ALESSANDRA ROKKASALVO

**BMT-İN İNKİŞAF PROQRAMININ AZƏRBAYCANDAKI REZİDENT NÜMAYƏNDƏSİNİN SƏLAHİYYƏTLƏRİNİ İCRA EDƏN**

Alessandra Rokkasalvo 2023-cü ilin oktyabr ayından etibarən BMT-nin İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı Rezident Nümayəndəsinin səlahiyyətlərini icra etməyə başlamışdır. Bundan öncə xanım Rokkasalvo BMT Baş Katibinin ofisi adından "Spotlight"
təşəbbüsü fondunun idarə heyətinin rəhbəri vəzifəsində çalışıb. O, 2014-2019-cu illərdə BMTİP-nın Kosovodakı ofisinə rəhbərlik edib. Bundan əvvəl isə BMTİP-nın qlobal miqyasda dəyişiklik proseslərini sürətləndirən daxili idarəetmə konsultasiyası komandasının üzvü olub. Xanım Rokkasalvo BMTİP-yə 2005-ci ildə BMTİP-nın İndoneziyadakı Nümayəndəliyinin sunami sonrası bərpa portfeli üzərində çalışan proqram rəhbəri kimi qoşulub. Bununla yanaşı, o, bir neçə dəfə Əfqanıstan və Sudanda SURGE məsləhətçisi kimi xidmət edib. Xanım Rokkasalvo öz karyerasına Almaniya və Hindistanda fəaliyyət göstərən "McKinsey & Company" şirkətində başlayıb. Xanım Rokkasalvo London İqtisadiyyat Məktəbinin "İnkişaf tədqiqatları" ixtisası, o cümlədən Tübingen Universiteti və Sent-Endryus Universitetinin "İqtisadiyyat" və "Tarix" ixtisasları üzrə magistr təhsili alıb.

# ÖZGÜNİNŞAAT

TAAHHÜT SANAYİ VE TİCARET LİMİTED ŞİRKETİ



Gayrettepe Mah. Gönenoğlu Sk. No:7 34349 Beşiktaş İstanbul / TÜRKİYE +90 212 275 37 37 +90 212 267 35 15 ozgun@ozguntr.com www.ozguntr.com / www.krkholding.com

Yasamal rayonu, Grand Park Yaşayış Kompleksi, məhelle 3161, General Həmidov küçəsi 31 mənzil 5 / AZERBAYCAN +994 51 270 93 14 info-az@ozguntr.com

KRKHOLDING 30. Yıl




road &traffic

12th Caspian International

**ROAD INFRASTRUCTURE AND PUBLIC TRANSPORT EXHIBITION**

**15 | 16 | 17 OCTOBER 2024**

**BAKU, AZERBAIJAN**
**BAKU EXPO CENTER**

Organisers

ceo caspian event organisers
Iteca Caspian
caspian event management
icaevents

Tel.: +994 12 404 10 00
+994 55 224 10 00
E-mail: roadandtraffic@ceo.az

www.roadtraffic.az

#RoadandTraffic

RoadTrafficAzerbaijan

roadtraffic.az



## DANİELS UQOÇİ

**BAŞ DİREKTORUN ƏMƏLİYYATLAR ÜZRƏ MÜAVİNİ**
**BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATI (BMT)**

Uqoçi Daniels Coğrafiya ixtisası üzrə bakalavr və magistr təhsili alıb. Bununla yanaşı Biznes qərarlarının alınması istiqamətində məlumatların idarəedilməsi üzrə ikinci magistr təhsili alıb və Microsoft sertifikatlı sistem mühəndisidir. 1992-1999-cu illərdə informasiya texnologiyaları, istehsalat və maliyyə xidmətləri sahələrində çalışıb. 1999-2002-ci illərdə Nigeriyada ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Missiyasının Monitorinq və Qiymətləndirmə üzrə informasiya mütəxəssisi kimi fəaliyyət göstərib. 2002-ci ildə BMT-nin Əhali Fondunda (UNFPA) Afrika Gənclər Alyansının (2002–2007) Qana, Tanzaniya, Botsvana və Uqanda ölkələrini əhatə edən Proqram üzrə menecer müavini kimi fəaliyyətə başlayıb. 2013-2018-ci illərdə Daniels Ugoçi BMT-nin Əhali Fondunun (UNFPA) Baş Qərargahında Humanitar və Problemli Kontekstlər Bölməsinin rəhbəri vəzifəsində çalışıb. 2018-2020-ci illərdə İran İslam Respublikasında Birləşmiş Millətlərin Rezident Koordinatoru və Təhlükəsizlik üzrə təyin edilmiş rəsmi şəxsi qismində fəaliyyət göstərib. Uqoçi Daniels Livan, Suriya və işğal altında olan Fələstin Ərazisini əhatə edən BMT-nin Fələstinli Qaçqınlar üçün Yardım və İşlər Agentliyinin (UNRWA) baş katibi vəzifəsində çalışıb. O, həmçinin humanitar fövqəladə hallarda qadın sağlamlığı uğrunda mübarizəsi və insan hüquqlarını qorumağa və sülhü təşviq etməyə olan sədaqəti üçün BMT-nin qəhrəmanı mükafatına layiq görülüb. Uqoçi həmçinin özəl sektorda da təcrübəyə malikdir. 1 sentyabr 2021-ci il tarixindən Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) Əməliyyatlar üzrə baş direktor müavini təyin olunub.

---



## MUHAMMAD NASAR HAYAT

**BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO)**
**AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ**

Muhammad Nasar Hayat Avstraliyanın Melburn Universitetində Hüquq və inkişaf üzrə magistr təhsili alıb. Nasar Hayatın 25 ildən çox rəhbərlik və idarəçilik təcrübəsi var. Laos Xalq Demokratik Respublikasında FAO-nun ölkə nümayəndəsi, Pakistanda FAO-nun müavin nümayəndəsi, Pakistanın Ali Komissarının müavini və Maldivlərdə işlər üzrə vəkil kimi diplomatik vəzifələr də daxil olmaqla, dövlət sektorunda bir çox vəzifələrdə işləyib. O, həmçinin BMT layihələrinin idarə edilməsi, kənd təsərrüfatının inkişafı, torpaq hüquqları, insan hüquqları və gender məsələləri üzrə donor və beynəlxalq təşkilatlarda fəaliyyət göstərib. Eyni zamanda, iqlim dəyişikliyinə adaptasiya, su ehtiyatlarının effektiv idarə edilməsi kimi mühüm sahələrdə çalışıb. Nasar Hayat 2023-cü ilin iyul ayından BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri vəzifəsinə təyin olunub.

---



## ALYA ƏL MAZRUİ

**BƏƏ-NİN YAĞIŞLARIN GÜCLƏNDİRİLMƏSİ ELMİ ÜZRƏ TƏDQİQAT PROQRAMININ DİREKTORU**

Əl Mazrui 2002-ci ildə Zayed Universitetinin Biznesin idarəedilməsi ixtisasını fərqlənmə dərəcəsi ilə bitirib. Əl Mazrui 2003-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin Milli Meteorologiya Mərkəzinin (NCM) Klimatologiya şöbəsinə daxil olub. Abu Dabi Politeknik ilə əməkdaşlıqda meteorologiya ixtisası üzrə yeni bir akademik proqram (Meteorologiya Elmləri Bakalavrı) layihəsinin başlanmasına rəhbərlik edib. Əl Mazrui, həmçinin davranış və ixtisaslaşmış texniki bacarıqlar üçün NCM-də yeni bir elektron öyrənmə metodologiyasından istifadə edilməsinə və tətbiqinə cəlb edilib. O, həmçinin 2005-ci ildə formalaşdırılan BƏƏ Hava Dəyişikliyi Mükafatlandırma Komandasının əsas üzvlərindən biri olub.

Əl Mazrui 2011-ci ildən 2013-cü ilə qədər Tədqiqat və İnkişaf Departamentinin Təlim şöbəsinin rəhbəri olub və Birləşmiş Krallıq Meteorologiya Ofisi ilə əməkdaşlıq müqaviləsi vasitəsilə Dünya Meteorologiya Təşkilatı (WMO) tərəfindən təsdiqlənmiş müxtəlif meteorologiya kurslarına rəhbərlik edib. Əl Mazrui 2014-cü ildən BƏƏ-nin Milli Meteorologiya Mərkəzi tərəfindən (NCM) idarə olunan, yağış gücləndirmə elmi və texnologiyasını təkmilləşdirmək məqsədi daşıyan beynəlxalq tədqiqat təşəbbüsü olan BƏƏ Yağış Gücləndirmə Elmi üzrə Tədqiqat Proqramının direktorudur.

Əl Mazrui BƏƏ-nin hava dəyişikliyi sahəsindəki iştirakını və quruculuq qabiliyyətini təkmilləşdirmək məqsədi daşıyan bir neçə beynəlxalq təşəbbüsə rəhbərlik edir. Bu təşəbbüslər arasında Beynəlxalq Yağış Gücləndirmə Elm və Texnologiyaları üzrə Tədqiqat Mükafatı və Beynəlxalq Yağış Gücləndirmə Forumu yer alır. Əl Mazrui NCM-dəki nailiyyətləri və töhfələri üçün bir neçə mükafat və təşəkkürnamə alıb.



## PROF. CÜNEYT ERENOĞLU

**REKTOR**
**ÇANAKKALE 18 MART UNİVERSİTETİ**

Prof. Ramazan Cüneyt Erenoğlu 1978-ci ildə anadan olub.

1999-cu ildə İstanbulda Ulduz Texniki Universitetinin Geodeziya və Fotoqrammetriya (Xəritələmə) Mühəndisliyi Kafedrasının İnşaat mühəndisliyi fakültəsini fərqlənmə diplomu ilə bitirib. Erenoğlu 2003-cü ildə həmin universitetdə magistr, 2009-cu ildə isə doktorantura təhsilini başa vurub.

Akademik karyerasına 2001-ci ildə Ulduz Texniki Universitetinin Geodeziya kafedrasında elmi işçi kimi başlayıb, magistratura və doktorantura təhsilini başa vurduqdan sonra həmin universitetdə dosent vəzifəsində davam edib. 2011-ci ildə Çanakkale Onsekiz Mart Universitetinin Mühəndislik fakültəsində dosent vəzifəsinə təyin edilib. 2017-ci ildə dosent elmi adını alıb. 2022-ci ildə Çanakkale Onsekiz Mart Universitetinin Geodeziya kafedrasının professoru olub. 2012-2023-cü illərdə şöbə müdiri, şöbə müdirinin müavini, dekan müavini, Tətbiq və Tədqiqat Mərkəzinin direktoru, Senatın üzvü, Peşə Məktəbinin direktoru və katib kimi bir çox rəhbər vəzifələrində işləyib. R.Cüneyt Erenoğlu hazırda Çanakkale Onsekiz Mart Universiteti Ezine Peşə Məktəbinin direktorudur və 2017-ci ilin oktyabr ayından bu vəzifəni icra edir. Müxtəlif yerli və beynəlxalq mühəndislik birliklərinin üzvü olan professor R. Cüneyt Erenoğlunun 235 məqaləsi var. Müxtəlif miqyaslı 41 tədqiqat layihəsində koordinator və tədqiqatçı kimi iştirak edib. Əsas tədqiqat sahələri Geotexnika Mühəndisliyi, Coğrafi İnformasiya Sistemləri, GPS-GNSS, Yer Ölçmələri, Ölçmə Texnikası, 3D-Modelləşdirmə, Mühəndislik və Texnologiya üzrədir. Ailəlidir, iki övladı var.

---



## MİR MÖVSÜM DADAŞEV

**DİREKTOR**
**AZƏRBAYCAN MELİORASİYA ELMİ-TƏDQİQAT İNSTİTUTU**

Mir Mövsüm Anar oğlu Dadaşev 1995-ci ildə anadan olub.

2017-ci ildə Edinburq Universitetinin Biznesin idarəedilməsi və mühasibat uçotu fakültəsini bitirib.

Xüsusilə Stuage akademik yardım layihəsinə əsaslanan üç şirkətin əsasını qoyub və idarəçiliyini həyata keçirib. 2018-ci ildə Dünya Məktəbində BB səviyyəsində Biznesin idarəedilməsi fənnini tədris etməyə başlayıb, daha sonra beynəlxalq BB tədris sertifikatı alıb və Biznes Tədqiqatları kitabını nəşr edib.

2021-ci ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində layihə məsləhətçisi olub. Daha sonra isə o, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Beynəlxalq əlaqələr, elm və innovasiya şöbəsinin müdiri vəzifəsini icra edib. 2022-ci ilin sonundan etibarən həmin qurumun nəzdində fəaliyyət göstərən Meliorasiya Elmi-Tədqiqat İnstitutunun icraçı direktoru vəzifəsinə təyin edilib.

Hazırda Mir Mövsüm Dadaşev su ehtiyatlarının tədqiqi, su təchizatı ilə bağlı texniki əməliyyatlarda yeniliklərin tətbiqi və ölkədə su təsərrüfatının idarə edilməsi sahəsinin inkişafına dair irimiqyaslı layihələrin icrasını təşkil edir.

---



## ÇİNGİZ ABDULLAYEV

**NÜMAYƏNDƏ, PROFESSOR**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Çingiz Əli oğlu Abdullayev 1960-cı ildə anadan olub.

Professor, texnika üzrə fəlsəfə və kulturologiya üzrə elmlər doktoru, 2011-ci ildən "Azərsu" ASC-nin sədr müşaviridir. Müxtəlif mövzuları əhatə edən 25 kitabı azərbaycan, rus, ingilis, alman və italyan dillərində nəşr olunub. Kitabları Avropanın aparıcı kitabxanalarında saxlanılır və beynəlxalq səviyyədə təqdimatları keçirilib. Beynəlxalq elmi konfranslarda - Bolqarıstan, Çexiya, Rusiya və Almaniyada təcrübə mübadiləsi keçməklə yanaşı, İtaliya, Ukrayna, Çin, Türkiyə, Ruminiya, Polşada məruzələrlə çıxış edib. Almaniya, Avstriya, Rusiya və Gürcüstanda Azərbaycan elminə və mədəniyyətinə həsr olunmuş çoxsaylı tədbirlərin rəhbəri olub. İki bədii filmin məsləhətçisi, on sənədli filmin ssenaristi və məsləhətçisidir. Filmlər Azərbaycan, Gürcüstan, Almaniya, Türkiyə və İsveçdə lentə alınıb.

1994-cü ildən Alman–Azərbaycan Cəmiyyətinin sədri, sülh səfiri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür.

2022-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb. O, eyni zamanda ölkədə və xarici ölkələrdə bir çox mükafatlara layiq görülüb.



## SMİTA MİSRA

**SU TƏCHİZATI VƏ KANALİZASIYA SEKTORU ÜZRƏ BAŞ MÜTƏXƏSSİS**
**DÜNYA BANKI**

Smita Misranın İqtisadiyyat üzrə doktorluq elmi dərəcəsi var. Dünya Bankında Su təchizatı və kanalizasiya üzrə baş mütəxəssis kimi fəaliyyət göstərir və bu sahədə 25 illik təcrübəyə malikdir.
Dünya Bankında su təcrübəsinin bir hissəsi olaraq Hindistan, Keniya, Banqladeş, Azərbaycan və Moldovadakı proqramlar da daxil olmaqla bir sıra layihələrə, analitik və konsaltinq işlərinə rəhbərlik edib. Onun iş təcrübəsinə bəzi qabaqcıl qlobal konsaltinq məsələlərinin- siyasət, təsisatlar və qaydaların (PIR) qiymətləndirilməsi, tariflər araşdırılması, əlavə xidmət təchizatçıları və şəhər üzrə inklüziv su təchizatı və s. həlli daxildir.
Siyasət və institutlara əsaslanaraq, bəzi qabaqcıl konsaltinq və infrastruktur proqramlarına- Su Təhlükəsizliyinin Təkmilləşdirilməsi üzrə Azərbaycan Proqramı, Moldova Su Təhlükəsizliyi və Kanalizasiyanın Təkmilləşdirilməsi Layihəsi, Şimla Su Təchizatı və Kanalizasiya Layihəsi, Çennay Şəhər Tərəfdaşlığı və Davamlı Şəhər Xidmətləri Proqramı, Keniya Şəhər Sularının İnkişafı Layihələri, Kerala Dayanıqlı Proqramı, Şəhərətrafı Ərazilər üçün Uttarakhand Su Təchizatı Proqramı, Aşağı gəlirli dövlətlər üçün Kənd Su Təchizatı və Kanalizasiya Layihəsi və s. rəhbərlik edib.

---



## DENNİ LEKKER

**BÖLMƏ RƏHBƏRİ**
**İSRAİLİN SU SİSTEMLƏRİ İDARƏSİ**

Danny Lacker Bar-İlan Universitetində Siyasi elm və dövlət idarəçiliyi üzrə magistr dərəcəsinə və 20 ildən çox iş təcrübəsinə malikdir.
Son on ildə Lacker İsrail Su İdarəsinin Su təhlükəsizliyi, Fövqəladə hallara hazırlıq və Kiber bölməsinin rəhbəri kimi fəaliyyət göstərir.
Lacker müxtəlif su tədarükçülərinin və İsrailin hazırlıq proqramlarının əsasını qoyub və bununla da su təhlükəsizliyi sahəsində tənzimləmə prosesinə rəhbərlik edib.
Lacker bütün dünyada su böhranlarına kömək etmək üçün çoxsaylı yardım nümayəndə heyətlərinə rəhbərlik edib.
İsrail Müdafiə Qüvvələrinin(IDF) Mühəndislik Korpusunda polkovnik-leytenant vəzifəsində işləyib, hal-hazırda təqaüddədir.
2018-ci ildə Danny fəaliyyətinə görə Dövlət Qulluğu Müvəkkili tərəfindən xüsusi mükafat alıb.

---



## TOMAS REBERMARK

**İSVEÇ SU EVİNİN DİREKTORU**
**STOKHOLM BEYNƏLXALQ SU İNSTİTUTU**

Tomas Rebermark su dəyər zənciri tərəfdarı, təcrübəli biznes və tərəfdaşlıqlar developeri hesab olunur.
İsveç Su Evinin Direktoru kimi onun əsas fəaliyyəti sektorlararası əməkdaşlığı gücləndirərək və davamlı su idarəçiliyi üzrə beynəlxalq siyasətə təsir göstərərək elm, siyasət və təcrübəçiləri bir araya gətirmək məqsədi daşıyır.
Thomas WaterAid, Childfund International (Sweden) kimi təşkilatlarda və şəhərsalma, infrastruktur, inşaat mühəndisliyi sahəsində özəl sektorlarda da fəaliyyət göstərib.
Thomas BMT Qlobal Saziş Şəbəkəsinin İsveç üzrə Seçki Şurasının və Beynəlxalq Su Assosiasiyasının (IWA) İsveç üzrə İdarə Heyətinin üzvüdür.
IFL/Stokholm İqtisadi Məktəbindən icra hakimiyyəti üzrə, Kral Texnologiya İnstitutundan (KTH) isə infrastrukturun idarə edilməsi üzrə diplomlara sahibdir. BMT Qlobal Sazişi və İsveç İdarəçilik Akademiyasının sertifikatlarına malikdir.
İsveç, ingilis, dan və italyan dillərini bilir.



## ARVO NERMAN

**FİNLANDİYA SU FORUMUNUN MƏRKƏZİ ASİYA VƏ ŞƏRQİ AVROPA ÜZRƏ LAYİHƏ DİREKTORU**

Arvo Nerman bələdiyyə infrastrukturu sektorunda 18 illik təcrübəyə malik ixtisaslı layihə direktorudur. O, sənaye və bələdiyyə layihələrinin idarə edilməsinin bütün aspektləri üzrə praktiki təcrübəyə malikdir. Nerman Finlandiyanın bütün su sektorunu bir araya gətirən beş milli nazirlik tərəfindən yaradılmış Fin Su Forumunu təmsil edir. Şərqi Avropa, Türkiyə, Qafqaz və Mərkəzi Asiya onun vəzifə öhdəliyinə daxil olan ərazilərdir. O, hökumətlə əlaqələrə cavabdehdir, yerli su qurumları, müəssisələr və QHT-lər vasitəsilə Finlandiyanın bu regionlara su ixracını, eləcə də Finlandiya Su Diplomatiyasının regionda həyata keçirilməsini təmin etmək üçün fəaliyyət göstərir.

---



## MEHMAN RZAYEV

**SƏDR MÜŞAVİRİ**
**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİ YANINDA İQTİSADİ ZONALARIN İNKİŞAFI AGENTLİYİ**

Mehman Ağarza oğlu Rzayev 1963-cü ildə anadan olub. 1980-1985-ci illərdə Azərbaycan Mühəndis-İnşaat İnstitutunu Mühəndis-hidrotexnik ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 1985-ci ildə təyinatla Azərbaycan HvəM EİB-də kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayıb. 1989-cu ildə Ukrayna Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun məqsədli aspiranturasına daxil olub və 1991-ci ildə Kiyev şəhərində "Zaqafqaziyanın arid zonalarında suvarmanın idarə edilməsi üzrə informasiya-hesablama sistemlərinin tətbiqinin əsaslandırılması" mövzusu üzrə dissertasiya işini müdafiə edib, "Meliorasiya və suvarma əkinçiliyi" ixtisası üzrə texnika elmləri namizədi elmi dərəcəsini alıb, sonrakı illərdə də elmi-tədqiqat işləri ilə məşğul olub. 2016-cı ildə "Azərbaycanda bazar iqtisadiyyatına keçid şəraitində meliorasiya və suvarmanın inkişafının elmi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib və "Meliorasiya, rekultivasiya, torpaqların mühafizəsi" və "Ekologiya" ixtisaslarında aqrar elmləri üzrə elmlər doktoru elmi dərəcəsini alıb. 2016-2020-ci illərdə Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətində, Aqrar Tədqiqatlar Mərkəzində, 2020-ci ildən indiyə qədər İqtisadiyyat Nazirliyində İqtisadi Zonaların İnkişaf Agentliyində müşavir kimi işləyir. Su və torpaqdan istifadənin ekoloji problemlərinə həsr edilmiş 50-dən yuxarı elmi məqalələrin müəllifidir. Bir neçə məqaləsi Thomson Reuters SSIE (Science Sitation Index Expanded) sitatgətirmə sisteminə daxil olan "Irrigation and Drainage", "Водные Ресурсы", "Journal of Agricultural Sciencies and Technology" kimi jurnallarda çap edilib. 2019-cu ildə "Azərbaycan: Suvarma əkinçiliyinin reformasiyası və ekoloji dayanıqlığı" adlı monoqrafiyası çap olunub. Ailəlidir, iki övladı var.

---



## QİVİ QAVARDAŞVİLİ

**DİREKTOR, AKADEMİK**
**GÜRCÜSTAN TEXNIKI UNIVERSITETININ (GTU) T.MIRSXULAVA ADINA SU TƏSƏRRÜFATI İNSTITUTU**

Qivi Qavardaşvili 1996-cı ildə texnika elmləri doktoru, 1998-ci ildə isə professor elmi adı alıb. 2006-cı ildə Almaniyanın Yustus Libex adına Gissen Universitetində qonaq professor, 2015-ci ildə Mərkəzi Çin Normal Universitetində fəxri professor, 2016-2017-ci illərdə Minsk Dövlət Universiteti və Brest Texniki Universiteti (Belarus) qonaq professor, 2017-ci ildə Kaunas Tətbiqi Elmlər Universitetinin Erasmus+ proqramı üzrə professor, 2018-2019-cu illərdə Varşava Həyat Elmləri Universitetində və 2021-2024-cü illərdə Polşanın Olsztyn Warmia və Mazury Universitetində qonaq professor olub. 2022-ci ildən Gürcüstan Milli Elmlər Akademiyasının akademiki, 2023-cü ildən Gürcüstanın əməkdar inşaatçısıdır. O, dünyanın 13 dilində 18 monoqrafiya, 8 metodik vəsait, 6 dərslik, 26 ixtira (10 xarici patent) daxil olmaqla 300-dən çox elmi əsərin müəllifidir. Gürcüstanın enerji və nəqliyyat koridorlarının mühafizəsi üçün nəzərdə tutulan 200-dən çox ətraf mühitin qorunması layihələrinin koordinatoru və müşahidəçisi olub. O, təbiətə təsir üzrə 40-dan çox layihənin ekspertidir. Gürcüstan Texniki Universitetinin 8 elmlər doktoru və 4 xarici magistr tələbəsinin elmi rəhbəri olub və hal-hazırda Gürcüstan Texniki Universitetinin 4 doktorantura tələbəsinin rəhbəri olaraq fəaliyyət göstərir. O, UNESCO, NATO, AB, SDC, ASCE, BMT, FAO, DB, NUFFIC kimi beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən və dəstəklənən su ehtiyatlarının problemləri, təbii fəlakətlərin idarə edilməsi, enerji təhlükəsizliyi, meliorasiya və ətraf mühitin qorunması ilə bağlı qrant layihələrinin, biznesin inkişafı layihələrinin, konqreslərin, beynəlxalq simpoziumların və konfransların sədri, həmsədri və iştirakçısıdır. 2005-ci ildən Gürcüstan Texniki Universitetinin T.Mirsxulava adına Su Təsərrüfatı İnstitutunun direktoru kimi fəaliyyət göstərir.




13th floor, Babek Plaza,
1131 Babek ave.,
Baku, Azerbaijan, AZ1024
Tel.: +994 12 488 08 70
+994 12 488 08 71
E-mail: incoming@gwtc.az

**www.gwtc.az**
**www.travel2azerbaijan.com**

GREENWICH
TRAVEL CLUB

4 | 5 | 6 JUNE 2024

# BAKU ENERGY WEEK



CASPIAN OIL&GAS

www.cog.az

CASPIAN POWER

www.caspianpower.az

BAKU ENERGY FORUM

www.bakuenergyforum.az

**www.bew.az**

Iteca Caspian | icaevents | ceo caspian event organisers | caspian event management

Organisers

Tel. : +994 12 404 10 00

: +994 55 224 10 00

E-mail : oilgas@iteca.az

power@iteca.az

bef@iteca.az



## FƏRDA İMANOV

**PROREKTOR, PROFESSOR**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Fərda Əli oğlu İmanov 1957-ci ildə anadan olub.
1974-1979-cu illərdə Leninqrad Hidrometeorologiya İnstitutunun (LHMİ) Hidrologiya fakültəsində təhsil alıb.
1980-1981-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda çalışıb. 1982-ci ildə müsabiqə yolu ilə LHMİ-nin əyani aspirantura şöbəsinə daxil olub və 1984-cü ildə həmin ali məktəbdə fəaliyyət göstərən İxtisaslaşmış Elmi Şurada namizədlik dissertasiya işini müdafiə edib. Müdafiədən sonra LHMİ-nin Qurunun hidrologiyası kafedrasında müəllim vəzifəsində işləyib. Həmin illərdə Rusiyanın Tümen, Pskov, Leninqrad və Çita vilayətləri çaylarının öyrənilməsi məqsədi ilə təşkil olunmuş ekspedisiyalarda iştirak edib.
1992-ci ildən BDU-nun Hidrometeorologiya kafedrasında müəllim işləyir.
1997-ci ildə Tbilisi Dövlət Universitetində fəaliyyət göstərən İxtisaslaşmış Elmi Şurada doktorluq dissertasiya işini müdafiə edib.
2003-cü ildən Hidrometeorologiya kafedrasının professoru, 2004-cü ildən isə müdiridir.
2011-2016-cı illərdə BDU-nun Coğrafiya fakültəsinin dekanı vəzifəsində çalışıb. 2016-cı ildən “Azərsu” ASC-nin “Sukanal” Elmi-Tədqiqat və Layihə İnstitutunda əvvəlcə direktor, sonra direktor müavini vəzifəsində işləyib. 2021-ci ildən Bakı Dövlət Universitetində Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor vəzifəsində çalışıb.
1992-ci ildə YUNESKO-nun Beynəlxalq Hidroloji Proqramı tərəfindən Praqa şəhərində Su ehtiyatlarının planlaşdırılması və idarə olunması üzrə təşkil olunmuş 6 aylıq beynəlxalq kurslarda iştirak edib. 2005-ci ildən YUNESKO-nun Beynəlxalq Hidroloji Proqram üzrə Azərbaycan Milli Komitəsinə sədrlik edir. 2016-cı ildə Dünya Su Şurasının, 2019-cu ildə isə Beynəlxalq Su Ehtiyatları Assosiasiyasının İdarə Heyətinin üzvü seçilib.
300-dən artıq elmi əsərin müəllifidir.
Müxtəlif xarici ölkələrdə xidməti ezamiyyətlərdə olub və konfranslarda iştirak edib.
2002-ci ildən başlayaraq Cənubi Qafqazda Kür hövzəsi çaylarının öyrənilməsi ilə bağlı Avropa Komissiyasının TACİS Proqramı, BMT-nin İnkişaf Proqramı, İsveçin İqtisadi İnkişaf Agentliyi, Qlobal Ekoloji Fondun həyata keçirdiyi bir neçə regional layihənin milli əlaqələndiricisidir.

---



## ƏLÖVSƏT QULİYEV

**TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTUNUN DİREKTORU, PROFESSOR**
**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

Əlövsət Gülüş oğlu Quliyev 1947-ci ildə anadan olub.
Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsinin Meliorasiya ixtisası üzrə təhsil alıb.
1992-ci ildə dosent elmi adı alıb. “Kənd təsərrüfatı elmləri namizədi” (2002) , “Aqrar elmləri doktoru” (2008) elmi dərəcələri olan Əlövsət Quliyev 201 elmi əsərin, o cümlədən 14 kitabın müəllifidir. 74 elmi əsəri xarici ölkələrdə nəşr olunub. 4 qısa metrajlı elmi-publisistik filmin ssenari müəllifidir.
2010-cu ildə professor elmi adı alıb. 2010-cu ildə Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, 2013-cü ildə Beynəlxalq Su Assosiasiyasının (International Water Association, Morocco) üzvü və həmin ildə UNESCO-nun “Qədim hidravlik sistemlər–kəhrizlər (qanat)” üzrə Dövlətlərarası İdarə Heyətinin üzvü (İran, Yəzd), 2014-cü ildə Beynəlxalq Ekologiya, İnsan və Təbiətin Təhlükəsizliyi Akademiyasının həqiqi üzvü və həmin ildə ABŞ-da dərc olunan Beynəlxalq “Geoloji Sərvətlər və Mühəndis texnologiyaları” jurnalının redaksiya kolleqiyasının üzvü (ISSN 2328-2193), 2017-ci ildə AMEA müxbir üzvü seçilib.
Əlövsət Quliyevə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən “qabaqcıl təhsil işçisi” (2007) döş nişanı, Naxçıvan Dövlət Universiteti tərəfindən “İlin alimi” (2007), AMEA-nın Rəyasət Heyətinin fəxri fərmanı (2017), Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəxri fərmanı (2019), Azərbaycan Respublikası Təhsil nazirinin BDU-nun 100 illiyinə həsr olunan yubiley medalı (2020) və mükafatlar (ETSN, AMEA, BMqT, NDU və s.) verilib.
28 yanvar 2015 -ci il tarixindən Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru vəzifəsinə təyin olunub.



## CABBAR CABBARLI

**NÜMAYƏNDƏ**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Cabbar Yunis oğlu Cabbarlı 1982-ci ildə anadan olub.
1999-2003-cü illərdə Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin bakalavr pilləsi üzrə təhsil alıb. 2003-2005-ci illərdə həmin fakültənin magistr pilləsini fərqlənmə diplomu ilə bitirib. Hal-hazırda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ikinci ali təhsilini davam etdirir. 2006-2010-cu illərdə "Bakıelektrikşəbəkə"ASC-də, 2010-2011-ci illərdə SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin Kommersiya departamentində, 2011-ci ilin may ayından "Azərsu" ASC-də müxtəlif vəzifələrdə çalışıb. Hal-hazırda "Azərsu"ASC-də Elektron idarəetmə və müasir texnologiyalar departamentinin rəisi vəzifəsində fəaliyyətini davam etdirir.



## RİAD AXUNDZADƏ

**NÜMAYƏNDƏ**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Riad Elbrus oğlu Axundzadə 1995-ci ildə anadan olub.
2012-2016-cı illərdə Bakı Dövlət Universitetində Kimya fakültəsi üzrə bakalavr, 2017-2019-cu illərdə Milan Universitetində Su sənayesində kimya mühəndisliyi ixtisası üzrə magistr təhsili alıb.
2015-ci ildə yüksək tədris göstəricilərinə görə Bakı Dövlət Universitetində "İlin tələbəsi" seçilib.
Əmək fəaliyyətinə 2013-cü ildə özəl şirkətlərin birində əməliyyatçı-operator olaraq başlayıb və 2016-cı ilə qədər müxtəlif vəzifələrdə çalışıb. 2018-2019-cu illərdə İtaliyanın Milan şəhərində Beynəlxalq patent araşdırma işçi qrupunun üzvü, 2019-2021-ci illərdə Azərbaycanda su sistemləri üzrə kimya mühəndisi, 2021-2022-ci illərdə "Azərsu" Açıq Səhmdar Cəmiyyətində mühəndis, 2022-ci ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində baş məsləhətçi, daha sonra sektor müdiri vəzifələrində işləyib. Bir elmi məqalənin müəllifidir.



## CƏMİL BABAYEV

**NÜMAYƏNDƏ**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

Cəmil Elçin oğlu Babayev 1987-ci ildə anadan olub.
2004-2008-ci illərdə Bakı Dövlət Universitetində kimyaçı ixtisası üzrə təhsil alıb.
2011-ci ildən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Oğuz-Qəbələ-Bakı" Su Təchizatı İdarəsinin kimyaçı – mühəndis vəzifəsində əmək fəaliyyətinə başlayıb və 2013-2016-cı illərdə həmin idarənin baş texnoloqu, 2016-2018-ci illərdə Ceyranbatan Su Təchizatı İdarəsinin Texniki İstehsalat şöbəsinin rəisi, baş texnoloq vəzifələrində çalışıb.
2018-ci ildən "Azərsu" ASC-nin Texnoloji proseslərə nəzarət və suyun təhlükəsizliyi şöbəsinin rəisi, baş texnoloq vəzifəsində çalışır.
Cəmil Babayev "Azərsu" ASC-də Azərbaycan Respublikasının su təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə "Azərsu" ASC-nin 31 may 2020-ci il tarixli, 224 nömrəli əmrinə əsasən Fəxri Fərman ilə təltif olunub. 2012-ci ildə ixtisas artırma və təlimlər çərçivəsində Türkiyənin İstanbul şəhərinin Dövlət Su İşləri İdarəsinin xidmətində olan içməli və tullantı su təmizləyici qurğularında, İSO/İEC 17025:2005 standartının tələblərinə cavab verən sınaq laboratoriyalarının təşkili və auditi üzrə, Fransa "SUEZ" şirkətinin "zərərsizləşdirici qurğular" proqramı ilə bağlı xüsusi təlimlərə cəlb edilib. 2022 və 2023-cü illərdə Bakı şəhərində keçirilmiş "Xəzər Su İnnovasiyaları" forumlarında spiker qismində çıxış edib. 2023-cü il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsinin AZSTAND/Q-14/2023 saylı Qərarının əsasında təsdiq edilmiş AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" dövlət standartı BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasının "Su və Sağlamlıq Protokolu"na əsasən Azərbaycan Respublikası tərəfindən rəsmi qəbul edilmiş Məqsədli Göstəricilərinin icrası ilə bağlı, Azərbaycan Respublikası Səhiyyə Nazirinin 23.12.2021-ci il tarixli, 109 nömrəli əmri ilə yaradılmış aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupun və standart layihəsinin qəbulu üzrə Texniki Komitənin üzvüdür. Ailəlidir, iki övladı var.



## İSMƏT BAXIŞOV

**CİS MƏRKƏZİNİN DİREKTORU**
**AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS)**

İsmət Ramiz oğlu Baxışov 1982-ci ildə anadan olub.

2003-cü ildə Azərbaycan Texniki Universitetinin Avtomatlaşdırma və kompüter texnikası ixtisası üzrə təhsil alıb. Xüsusilə avtomatlaşdırılmış sistemlər üçün proqram təminatı sahəsində ixtisaslaşıb. 2007-ci ildə Hindistan Məsafədən Müşahidə İnstitutunda (IIRS) BMT-nin Mərkəzi Asiya və Sakit Okean Ərazisində Kosmik Elmlər və Texnologiyalar üzrə Təhsil Mərkəzinin (CSSTEAP) Yerin Məsafədən Müşahidəsi və Coğrafi İnformasiya Sistemləri (GIS&RS) proqramı üzrə məzun olub.

2022-ci ildə Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) İnformasiya texnologiyaları sahəsində magistr dərəcəsi qazanıb. Hal-hazırda Milli Aerokosmik Agentliyinin Təbii Ehtiyatların Kosmik Tədqiqatlar İnstitutunda Məsafədən idarəetmə və aerokosmik tədqiqatlar sahəsində doktorant təhsili alır. Azərbaycan Milli Aerokosmik Agentliyində, Əmlak Məsələləri Dövlət Xidmətində və digər qurumlarda çalışmış İsmət Baxışov 2017-ci ildən Azərbaycan Respublikasının Kosmik Agentliyinin (Azərkosmos) Coğrafi İnformasiya Sistemləri Mərkəzinin direktoru olaraq çalışır.

---



## ƏKBƏR ƏSGƏROV

**MİLLİ HİDROMETEOROLOGİYA XİDMƏTİNİN RƏİS MÜAVİNİ**
**AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ**

Əkbər Aydın oğlu Əsgərov 1975-ci ildə anadan olub.

1997-2001-ci illərdə Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsini bitirib. 2005-2007-ci illərdə Fiziki okeanologiya ixtisası üzrə magistr təhsili alıb. 2008-2011-ci illərdə Hidrometeorologiya Elmi Tədqiqat İnstitutunda Fiziki okeanologiya ixtisası üzrə doktorantura təhsili alıb.

Hidrometeorologiya sahəsi üzrə yerli və xarici jurnallarda 10-dan artıq elmi məqalələri dərc olunub.

2002-2005-ci illərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsində qrup rəhbəri və baş mühəndis vəzifələrində çalışıb. 2011-2014-cü illərdə Bakı Dövlət Universitetinin Hidrometeorologiya kafedrasında pedaqoji fəaliyyətlə məşğul olub. 2012-2014-cü illərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentində Dəniz-hidrometeorologiya şöbəsinin rəisi və Hidrometeorologiya Mərkəzinin direktoru, 2015-2016-cı illərdə Nazirliyin aparatında aparıcı məsləhətçi, 2016-2020-ci illərdə Milli Hidrometeorologiya Departamentində direktor müavini-sektor müdiri, 2020-2023-cü illərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətində şöbə müdiri, 2023-cü ildə Nazirliyin Aparatında Su ehtiyatlarının inteqrasiyalı idarə olunması sektorunun müdiri vəzifəsində çalışıb.

2024-cü ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinə rəis müavini təyin olunub.

İşlədiyi dövrdə Nazirliyin və Həmkarlar təşkilatının fəxri fərmanları ilə təltif olunub, ABŞ, İsveçrə, Macarıstan, Çin, Taylandda təşkil olunmuş rəsmi görüşlərdə iştirak edib.

"Dövlət qulluğunun kiçik müşaviri" ixtisas dərəcəsini alıb. 3-cü təsnifat dövlət qulluqçusudur.

Ailəlidir, üç övladı var

---



## DR. BARBARA YANUŞ-PAULETTA

**MƏRKƏZİ ASİYADA SU TƏSƏRRÜFATI ÜZRƏ YUNESKO-NUN SƏDRİ**

Dr. Barbara Janusz-Pawletta, Qazaxıstan-Almaniya Universitetində (DKU) Beynəlxalq Əməkdaşlıqda Davamlı İnkişaf üzrə vitse-prezident və Mərkəzi Asiyada Su təsərrüfatı üzrə YUNESKO kafedrasının sədri kimi fəaliyyət göstərir. Onun tədris və tədqiqat sahələri hüquqi çərçivələri və dövlətlərarası institusional əməkdaşlığı əhatə edir ki, bu da özündə su və iqlimə aid məsələləri ehtiva edir. Janusz-Pawletta, təbii ehtiyatlar sahəsində davamlı dövlətlərarası əməkdaşlığı asanlaşdıran qlobal və mükəmməl regional təcrübəyə malikdir.



## VEDAT ÇALIŞKAN

**PROFESSOR**
**ÇANAKKALE 18 MART UNİVERSİTETİ**

Prof. Vedat Çalışkan 1970-ci ildə anadan olub.
Bakalavr (1991), magistr (1994) və doktorantura (2002) təhsilini İstanbul Universitetində Humanitar və iqtisadi coğrafiya sahəsində tamamlayıb.
Çalışkan, 1997-1999-cu illərdə Türkiyə Milli Təhsil Nazirliyinin Coğrafiya Kitablarının Orfoqrafiyası Komissiyasında fəaliyyət göstərib. 2005-ci ildə Çanakkale Onsekiz Mart Universitetində mühazirəçi, 2012-ci ildə dosent, 2017-ci ildə isə professor heyətinə təyin edilib.
Turizm coğrafiyası, mədəni coğrafiya və mədəni irs sahələrində çox sayda məqalə və kitab müəllifi olan Prof. Dr. Çalışkanın bəzi tədqiqatları beynəlxalq səviyyədə böyük maraq yaradıb. Bunlardan ilki, eyni zamanda dissertasiya işi olan Amik gölünün qurudulması və təsirləri haqqındadır.
Prof.Çalışkan apardığı elmi tədqiqatlara, "Türkiyə-Rusiya mədəni dialoquna və ortaq mədəni irsə fərdi töhfələr", "Rusiya və Türkiyə arasında təhsil və mədəniyyət sahələrində münasibətlərin gücləndirilməsinə verdiyi töhfələr"ə görə Türkiyə və Rusiyadakı bir çox rəsmi qurumlar tərəfindən "Təşəkkürnamə" ilə təltif edilib.
2014-2016-cı illərdə UNESCO-Efes Ərazisi üzrə İdarəetmə Məsləhət Şurasının üzvü kimi vəzifədə olan Çalışkanın "ənənəvi yarmarkalar" mövzusunda da uzun illər davam edən tədqiqat işləri mövcuddur. Yarmarkalarla bağlı biri yerli, digəri beynəlxalq olmaqla iki ayrı layihənin icraçısı olub. 2019-2020-ci tədris ilində, yarmarkalarla bağlı layihəsi üzrə Cənubi Karolina Universitetinin (ABŞ) Coğrafiya bölməsində təqaüdlü tədqiqatçı kimi çalışıb.

---



## YOVAN DESPOTOVİÇ

**PROFESSOR, DOKTOR**
**SERBİYA MİLLİ KOMİTƏSİ IHP UNESCO**

Professor Yovan Despotoviç Belqrad Universitetinin İnşaat mühəndisliyi fakültəsinin Hidrologiya və hidrotexnika mühəndisliyi ixtisası üzrə fəxri təqaüdçü professorudur.
O, Kanada, Qazaxıstan və Rusiyada beynəlxalq tədris təcrübələri də daxil olmaqla, bakalavr pilləsindən doktoranturaya qədər müxtəlif akademik səviyyələrdə müəllimlik karyerasına malikdir.
Onun elmi tədqiqatları 1980-ci ildən 2022-ci ilə qədər çoxsaylı elmi və inkişaf layihələrində iştirakı ilə dəstəklənən yağış-axın prosesinə yönəlib.
Professor Despotoviç kitablar, tədqiqat məqalələri daxil olmaqla 230-dan çox əsər nəşr etdirib və beynəlxalq konfranslarda elmi şuraların üzvü olub.
Müxtəlif peşəkar assosiasiyaların fəal üzvü kimi Despotoviç YUNESKO-nun Beynəlxalq Hidrologiya Proqramında (IHP) mühüm rol oynayıb, IHP Serbiya Komitəsinin sədri və IHP YUNESKO Şurasının vitse-prezidenti kimi fəaliyyət göstərib.
O, YUNESKO-nun Kafedraları və Tədris Mərkəzlərinin yaradılmasında, beynəlxalq akademik əməkdaşlığın inkişafında, Dunay və Sava çaylarının su ehtiyatlarının idarə olunmasında həlledici rol oynayıb.

---



## MƏHƏMMƏD ƏL ATRAŞ

**BEYNƏLXALQ HİDROGEOLOGİYA MƏSLƏHƏTÇİSİ**

Mohammad Al Atrash İordaniya Su Nazirliyi və Almaniya Federal İnstitutunda Geologiya və təbii ehtiyatlar üzrə su ehtiyatları eksperti kimi fəaliyyət göstərir.
Geologiya və hidrogeologiya üzrə bakalavr, Su ehtiyatlarının idarəedilməsi üzrə magistr (1997) təhsili alıb. 30 il İordaniya Su Nazirliyində texniki işlər üzrə köməkçi və baş katib vəzifələrində çalışıb.
Su ehtiyatlarının idarəedilməsi və planlaşdırılması, İordaniyada çirkab yeraltı su və duzlu su resurslarının idarə olunması, səth suyu hidrologiyası, iqlim dəyişikliyi, su itkisi, transsərhəd və su mübadiləsi müqavilələri, su idarəçiliyi, su quyularının qazılması, su strategiyası üzrə və beynəlxalq agentliklər tərəfindən maliyyələşdirilən bir neçə layihənin direktoru və baş hidrogeoloqdur.



# **AKELİK** Group MMC

26/2 Əhməd Rəcəbli küç. Bakı, AZƏRBAYCAN +994 12 464 84 73 office@akelik.az www.akelik.az

# CASPIAN CONSTRUCTION WEEK

**Baku Build**

29th Azerbaijan International
**CONSTRUCTION EXHIBITION**

www.bakubuild.az

**Rebuild Karabakh**

4TH AZERBAIJAN INTERNATIONAL
**"RESTORATION, RECONSTRUCTION AND DEVELOPMENT OF KARABAKH" EXHIBITION**

www.rebuildkarabakh.az

**aqua THERM BAKU ®**

**16th INTERNATIONAL EXHIBITION FOR HEATING, VENTILATION, AIR-CONDITIONING, WATER SUPPLY, SANITARY AND SWIMMING POOL**

www.aquatherm.az

## 15 | 16 | 17 OCTOBER 2024

**BAKU EXPO CENTER – BAKU, AZERBAIJAN**

Organisers

ceo caspian event organisers · ITECA CASPIAN · caspian event management · icaevents

Tel.: +994 12 404 1000
+994 55 224 1000
E-mail: build@iteca.az

Built by RX
In the business of building businesses



## SEVİNC HACIYEVA

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN EKOLOGİYA VƏ TORPAQŞÜNASLIQ FAKÜLTƏSİNİN EKOLOJİ KİMYA KAFEDRASININ MÜDİRİ, PROFESSOR**

Sevinc Rafiq qızı Hacıyeva 1966-cı ildə anadan olub. 1988-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1989-1993-cü illərdə AMEA-nın Kimya Problemləri İnstitutunda əyani aspirantura təhsili alıb. 1994-cü ildə "Arsen və germaniumdan ibarət üçlü qarşılıqlı xalkogenid sistemlərinin kəsiklərində qarşılıqlı təsir və şüşəəmələgəlmənin xarakteri" mövzusunda kimya elmləri namizədi alimlik dərəcəsi alıb. 2002-ci ildə "Germanium, arsen, stibium, bismut və nadir torpaq elementlərinin çox komponentli kristallik və şüşəvari xalkogenidlərinin və onların əsasında lüminaforların sintezinin fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2005-ci ildə professor elmi adını alıb.

2004-cü ildən Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsi Ekoloji kimya kafedrasının müdiri vəzifəsində çalışır.

Sevinc Hacıyeva bir çox fəxri fərman və medallarla təltif olunub. 2006-cı ildə qazandığı elmi uğurlara görə "Fəxri fərman"-la təltif olunub. 2006-2007-ci tədris ilinin nəticələrinə görə "İlin kafedra müdiri" fəxri adını alıb. 2007-ci ildə gənc nəslin yetişdirilməsində xidmətlərinə görə "Fəxri fərman", 2009-cu ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. 2013-cü ildə İdeal Sülhün Təbliği Fondunun "Dünyanın sülh carçısı" diplomu ilə təltif olunub. 2014-cü ildə gənc nəslin yetişdirilməsində böyük xidmətlərinə, elmin, təhsilin inkişafında roluna görə "Fəxri fərman", 2016-cı ildə Azərbaycan elminin və təhsilinin inkişafında, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında böyük roluna, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasındakı xidmətlərinə görə "Fəxri fərman"-la təltif olunub. 2018-ci ildə Ayn Şəms Universitetinin Fəxri doktoru adı verilib. 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi medalı" ilə təltif olunub. 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı"na layiq görülüb. 850-dən çox elmi əsərin, 20 patentin, 36 dərslik və dərs vəsaitlərinin həmmüəllifidir.

---



## RZA MAHMUDOV

**QURUNUN HİDROLOGİYASI VƏ SU EHTİYATLARI ŞÖBƏSİNİN MÜDİRİ
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ COĞRAFİYA İNSTİTUTU**

Coğrafiya elmləri doktoru, professor Rza Nadir oğlu Mahmudov Beynəlxalq Elmlər Akademiyasının (Avstriya) üzvü, Amerika Hidrologiya İnstitutunun üzvü, Bakı Dövlət Universitetinin və Milli Aviasiya Akademiyasının professorudur. Əsas tədqiqat sahəsi iqlim dəyişmələri və onun çayların axımına, su ehtiyatlarına təsiri, təhlükəli hidrometeoroloji hadisələr və çayların axım proqnozu kimi məsələləri əhatə edir. 210-dan çox elmi məqalənin, 11 monoqrafiyanın, 3 xəritənin, 18 metodik vəsaitin, 7 elmi bukletin müəllifidir. Hal-hazırda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun "Qurunun hidrologiyası və su ehtiyatları" şöbəsinin müdiri vəzifəsində çalışır.

---



## FƏQAN ƏLİYEV

**PREZİDENT, PROFESSOR
BEYNƏLXALQ EKOENERGETİKA AKADEMİYASI**

Fəqan Qənbər oğlu Əliyev 1945-ci ildə anadan olub. 1969-cu ildə Azərbaycan Dövlət Politexnik İnstitutunda istilik, qaz təchizatı və ventilyasiya ixtisası, 1982-ci ildə SSRİ Xalq Təsərrüfatı Akademiyasında riyazi-iqtisadiyyat sahəsi üzrə təhsil alıb. Moskvada aspirantura üzrə Fizika və İnşaat İnstitutunu bitirdikdən sonra 1979-cu ildə texnika elmləri namizədliyi və 1988-ci ildə isə texnika elmləri doktorluq dissertasiyasını müdafiə edib.

1967-1970-ci illərdə Bakı Politexnik Texnikumunun və Azərbaycan Politexnik İnstitutunun müəllimi, 1972-1977-ci illərdə Azərbaycan LKGİ MK-nin katibi, 1977-1991-ci illərdə Azərbaycan Dövlət İdman Komitəsi sədrinin tikinti üzrə müavini, 1991-1992-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsində Xarici sərmayələr idarəsinin müdiri, 1992-1997-ci illərdə Azərbaycan Dövlət Elm və Texnika Komitəsi sədrinin müavini vəzifələrində çalışıb.

1994-cü ildən bu günə kimi Beynəlxalq Ekoenergetika Akademiyasının prezidenti, 2012-ci ildən bu

günə kimi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Ekologiya" kafedrasının müdiri vəzifəsində işləyir. Rusiya Memarlıq və İnşaat Elmləri Akademiyasının akademiki, "AVOK" Assosiasiyasının üzvü, Azad İran İslam Universitetinin fəxri professoru, İran İslam Respublikası Enerji və Su Problemləri İnstitutunun fəxri doktoru və professoru, Böyük Britaniyada Oksford Universitetinin fəxri professoru və Böyük Britaniyada Oksford Akademiyasının üzvüdür. Fəqan Əliyev 1990-cı ildə "Günəş" Elm-İstehsalat Assosiasiyasını, 1994-cü ildə Beynəlxalq Ekoenergetika Akademiyasını (BEA) və 1996-cı ildə Azərbaycan Korroziya Cəmiyyətini yaradıb. Rus və ingilis dillərini bilir. Ailəlidir, bir övladı var.

---



## TEYMUR OSMANOV

**TEXNİKA ELMLƏRİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU, MÜSTƏQİL EKSPERT**

Teymur Osmanov 1971-1976 illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda, 1978-1982 illərdə Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun aspiranturası üzrə, 2005-ci ildə Özbəkistanda Su ehtiyatlarının inteqrasiyalı idarəetməsinin reallaşdırılması kursu üzrə təhsil alıb.

1976-2005-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda Meliorasiya laboratoriyasının kiçik elmi işçisi, baş elmi işçisi, aparıcı elmi işçisi, müdiri, 2005-ci ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də Elm, layihə və ekspertiza sektorunun müdiri vəzifələrində çalışıb. 2002-ci ildən "Saf Su Ekoloji-Meliorativ Monitorinq Mərkəzi" İctimai Birliyinin sədr müavini, Cənubi Qafqaz və Orta Asiya ölkələri üzrə Qlobal Su Əməkdaşlığı Təşkilatının Regional Şurasının üzvü, 2003-cü ildən Asiya İnkişaf Bankının qrantı ilə Pakistanın NESPAK layihə şirkətinin hazırladığı "Daşqın zərərlərinin aradan qaldırılması" Texniki İqtisadi Əsaslandırmasında ətraf mühit üzrə ekspert kimi fəaliyyət göstərir. Meliorasiya və suvarma əkinçiliyi ixtisası üzrə texnika elmləri namizədidir. (1985 il) 48 məqalə, tövsiyə və monoqrafiyası var. Rus və alman dillərini bilir.

---



## İSMAYIL MÜZƏFFƏRZADƏ

**NÜMAYƏNDƏ**
**AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ**

İsmayıl Müzəffərzadə 1994-cü ildə anadan olub. 2017-ci ildə Edinburq Heriot-Vatt Universitetinin Kimya mühəndisliyi ixtisası üzrə məzun olub.

2017-ci ilin oktyabr ayında Gilan Sənaye Qrupunun Gilan Seramik zavodunda kimya mühəndisi kimi işə başlayıb, yeni xammalın sınaqdan keçirilməsinə rəhbərlik edib və onların istifadəsi ilə bağlı qərarlar qəbul edib. O, həmçinin keramik plitələrin gündəlik keyfiyyətinə nəzarət edib və bütün lazımi sınaqları həyata keçirib. Bundan sonra o, "AzerGold" QSC-də Mədən-istehsalat sahələrinin koordinasiyası şöbəsinin mütəxəssisi vəzifəsində çalışıb. Əsas missiya beynəlxalq firmalar tərəfindən istifadə olunan müasir istehsal üsulları, texnologiyaları və avadanlıqları özündə birləşdirən Çovdar filiz emalı və Tulalar layihəsi kimi istehsal zonalarına nəzarət etmək idi.

2020-ci ilin mart ayında İnnovasiya Mərkəzində "Tech Diaspora" üzrə baş mütəxəssis vəzifəsində çalışıb. Əsas məqsəd Azərbaycanda startap ekosistemini inkişaf etdirmək idi. Əsas məsuliyyət dünya miqyasında yaşayan azərbaycanlı texnoloji peşəkarlar və startap maraqlı tərəflər arasında əlaqələri möhkəmləndirmək, onların ölkəmizlə əməkdaşlığını və birgə təşəbbüsləri təmin etmək idi. Qısa müddət sonra Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də Beynəlxalq əlaqələr, elm və innovasiyalar sektorunun baş məsləhətçisi vəzifəsinə keçib. Sektorun əsas istiqamətləri Cəmiyyətin qurumları ilə birlikdə xarici tərəfdaşların təkliflərini araşdırmaq; əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi üçün müvafiq təkliflər hazırlamaq; sahə üzrə beynəlxalq sənədlərin (saziş, anlaşma memorandumu, niyyət protokolu, müqavilə) layihəsini hazırlayaraq Cəmiyyətin qurumlarına, o cümlədən Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına baxılması üçün göndərilməsini təşkil etmək; Cəmiyyətin qurumlarının beynəlxalq təşkilatlarda maraqlarının təmin edilməsi barədə təkliflər hazırlamaq; müasir elm, texnika, mütərəqqi texnologiyalar və innovasiyalar əsasında sahənin inkişafının təmin edilməsini təşkil etmək; meliorasiya və irriqasiya sahəsində elmi-metodiki sənədlərin hazırlanıb tətbiq edilməsini təşkil etmək; qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərməkdən ibarətdir.



## SƏMƏD RZAZADƏ

**MARKETİNQ VƏ İNNOVASİYA ŞÖBƏSİNİN MÜDİRİ**
**AZƏRBAYCAN MELİORASİYA ELMİ-TƏDQİQAT İNSTİTUTUNUN BEYNƏLXALQ ƏLAQƏLƏR**

Səməd İlham oğlu Rzazadə 1996-cı ildə anadan olub.
2013-2017-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Statistika ixtisası üzrə bakalavr, 2018-2020-ci illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetinin MBA proqramının Marketinq ixtisası üzrə magistr təhsili alıb. Əmək fəaliyyətinə Elm və Təhsil Nazirliyində başlayıb. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin "Layihələrin idarəedilməsi" şöbəsinin baş mütəxəssisi, eləcə də Elm və Təhsil Nazirliyi və ASAN Xidmətin birgə təşkilatçılığı ilə icra olunan "Məktəblinin dostu" layihəsinin rəhbəri vəzifələrində çalışıb.
2022-ci ildən etibarən Meliorasiya Elmi-Tədqiqat İnstitutunun "Beynəlxalq əlaqələr, marketinq və innovasiya" şöbəsinin müdiri vəzifəsində çalışır.
2014-cü ildən "İqtisadçı Tələbələrə Dəstək" İctimai Birliyinin təsisçisi və sədridir. "Səs ver 2015", "Biznes 360 dərəcə", "Azərbaycan-2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər-İqtisadçı Tələbələrin I Şəbəkələşmə Forumu" layihələrinin rəhbəridir.
Böhran vəziyyətinin idarəedilməsi sahəsi üzrə mütəxəssisdir.
İngilis, alman və türk dillərini bilir.
Ailəlidir, bir övladı var.



## VƏFA MƏMMƏDOVA

**EKOLOJİ TƏHLÜKƏSİZLİK FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ŞÖBƏSİNİN ƏMƏKDAŞI**
**AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ**

Vəfa Rahim qızı Məmmədova 1980-ci ildə anadan olub.
1998-2002-ci illərdə Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində təhsil alıb. 2019-2021-ci illərdə Hidrometeorologiya ixtisası üzrə magistr dərəcəsini fərqlənmə ilə bitirib.
Hidrometeorologiya sahəsi üzrə yerli və xarici jurnallarda bir neçə elmi məqalələri dərc olunub.
2002-2003-cü illərdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin Hidrometeoroloji Proqnozlar Bürosunda mühəndis-sinoptik, 2003-2011-ci illərdə aparıcı-mühəndis sinoptik, 2011-2012-ci illərdə baş mütəxəssis, 2012-2020-ci illərdə Hidroloji Proqnozlar şöbəsində şöbə rəisi, 2020-2021-ci illərdə Hidrologiya Mərkəzində baş mühəndis və direktor müavini, 2021-ci ildə Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsində məsləhətçi, 2022-ci ildə Nazirliyin Su ehtiyatlarının idarə edilməsi şöbəsində baş məsləhətçi vəzifələrində çalışıb. 2023-cü ildə Nazirliyin Ekoloji təhlükəsizlik fəaliyyətinin təhlili və qiymətləndirilməsi şöbəsinin baş məsləhətçisi təyin olunub. Fəaliyyət göstərdiyi müddət ərzində su məsələləri ilə əlaqədar çoxsaylı xarici, eləcə də yerli təlimlərdə, konfranslarda iştirak edib və sertifikatlar qazanıb.
İşlədiyi dövrdə Nazirliyin Həmkarlar təşkilatının fəxri fərmanı ilə təltif olunub.
"II dərəcəli dövlət qulluqçusu" ixtisas dərəcəsini alıb. 5-ci təsnifat dövlət qulluqçusudur.



## NASİM ZAYA

**SU ÜZRƏ TEXNOLOJI KOMMERSIYA BÖLMƏSININ ICRAÇI DIREKTORU**
**ACWA POWER**

Naseem Zaya İstehsalat mühəndisliyi ixtisası üzrə təhsil alıb.
Su, tullantı suyunun təmizlənməsi, su idarəçiliyi, enerji itkisi sahəsində 20 ildən çox iş təcrübəsinə malikdir. Su və tullantı sularının təmizlənməsi istiqamətində 2003-2007-ci illərdə Wetico şirkətində kimya mühəndisi, 2007-2020-ci illərdə Metito Overseas Ltd-də baş kimyaçı vəzifələrində çalışıb. Metito daxilində bir sıra EPC ( mühəndislik, satınalma və tikinti) layihələrini qazanmış texnologiya və kimya komandasına rəhbərlik edib.
2020-ci ilin yanvar ayından ACWA Power şirkətində fəaliyyət göstərir. ACWA Power çərçivəsində 4 geniş miqyaslı Müstəqil Su Layihəsini (IWP) qazanmış BD texniki komandasına uğurla rəhbərlik edib.



## ÇEN ROZENFELD

**BİZNESİN İNKİŞAFI ÜZRƏ MENECER**
**IDE TECHNOLOGİES**

Chen Rosenfeld Texnion – İsrail Texnoloji İnstitutunun məzunudur, su və tullantı sularının təmizləmə prosesləri və membran texnologiyalarına diqqət yetirən Ətraf mühit mühəndisliyi üzrə bakalavr dərəcəsinə sahibdir. Həmçinin, o, Bar-İlan Universitetindən Hüquq elmləri üzrə magistr dərəcəsinə malikdir. Chen Rosenfeld 2014-cü ildən IDE-də işləyir və hazırda IDE Technologies Group-un bir hissəsi olan IDE Water Assets-də Biznesin inkişafı meneceri kimi fəaliyyət göstərir. Chen duzsuzlaşdırma seqmentində qlobal satış, biznesin inkişafı və marketinq sahəsində onillik təcrübəyə malikdir. O, xüsusi olaraq texnoloji cəhətdən irəliləyərək özəl və dövlət sektorlarında iri miqyaslı infrastruktur layihələrində ixtisaslaşıb, unikal inteqrasiya olunmuş kommersiya və texnoloji imkanları təmin edir.

---



## DİEQO BERGER

**BEYNƏLXALQ XÜSUSİ LAYİHƏLƏR ÜZRƏ KOORDİNATOR**
**MEKOROT**

Diego Berger 1989-cu ildə Buenos-Ayres Universitetinin Mühəndislik fakültəsinin İnşaat mühəndisliyi hidravlika ixtisası, Texnion-İsrail Texnologiya İnstitutunda Ətraf mühit mühəndisliyi və Su ehtiyatlarının idarə edilməsi üzrə magistr və doktorantura pilləsi üzrə təhsil alıb. 1996-cı ildən Diego Mekorot Laboratoriyası və Kinneret Gölünün Su Hövzəsi Bölməsində tədqiqatçı kimi fəaliyyətə başlayıb. Onun peşəkar fəaliyyəti əsasən yerüstü və yeraltı suların monitorinqi, su ehtiyatlarının idarə edilməsi, yerüstü və yeraltı suların hidrologiyası, yağış-axın modelləri, göllərin və su anbarlarının bioloji və kimyəvi modelləşdirilməsi, su təchizatı sistemlərinin modelləşdirilməsi və optimallaşdırılması, qrunt sularının modelləşdirilməsi kimi sahələrə yönəlib. Son illərdə Diego Mekorot adından xaricdə hidrologiya və su ehtiyatlarının idarə edilməsi məsələlərində konsaltinq işlərində fəal iştirak edir. 2014-cü ildən o, Meksika, Argentina, Peru, Braziliya, Hindistan və Qvineya kimi ölkələrdə Mekorotun xaricdəki layihələrinin koordinatoru vəzifəsində çalışır. Onun akademik fəaliyyətinə Negevdə Ben Qurion adına Universitetin Mühəndislik fakültəsinin Su sistemləri mühəndisliyi (2007-2010-cu illər) və 2011-ci ildən Texnion Beynəlxalq Mühəndislik Məktəbinin Hidroloji mühəndislik ixtisasının tədrisi də daxildir. İngilis, fransız, ispan, ivrit və portuqal dillərini bilir. Ailəlidir, üç övladı var.

---



## CASTİN ROBERT

**MƏRKƏZİ TEXNİKİ XİDMƏT ŞÖBƏSİNİN DİREKTORU**
**ACWA POWER**

Justin Robert Paden maşınqayırma ixtisası üzrə bakalavr, termal mühəndislik ixtisası üzrə magistr təhsili alıb. OTEC tətbiqi üçün termal duzsuzlaşdırma üzrə fəlsəfə doktorudur.
Duzsuzlaşdırma sahəsi, tədqiqat və inkişaf, termal avadanlıq dizaynı üzrə 20 ildən çox təcrübəyə malikdir. Doosan Heavy sənaye şirkətində texnologiya üzrə inkişaf meneceri kimi çalışıb.
ACWA Power-ın Taweelah IWP, Rabigh3 IWP, Jubail 3A IWP, Umm al Quwain IWP kimi dünyanın ən böyük IWP kritik layihələrində texniki rəhbər olub. On üç tədqiqat nəşrinin müəllifidir.
Hindistanın Elm və Texnologiya Departamentinin və Atom Enerjisi Departamentinin maliyyələşdirdiyi bir neçə Termal Təmizləmə Tədqiqat Layihələrinin tədqiqatçısıdır

---



## AYDIN DƏMİROV

**DİREKTOR**
**AZTƏSƏRRÜFAT MMC**

Aydın Mübariz oğlu Dəmirov 06.07.1985 ci ildə Bakı şəhərində anadan olmuşam, Bakı şəhəri 115 saylı orta məktəbdə ilk təhsilimə başlamışam, 2003 cü ildə Ali məktəbə, Milli Aviasiya Akademiyasına daxil olmuşam, 2008-ci ildə buranı mühəndis ekoluq ixtisası-tam təhsil üzrə bitirmişəm. Karyerama bank sektorunda başlamışam 14 il ərzində müxtəlif banklarda satış mütəxəssisindən inzibatçıya kimi yüksəlmişəm. Müxtəlif illərdə kollecdə müəllimlik fəaliyyəti ilə, istehsal sahəsində zavodda direktor müavini kimi də fəaliyyətim olub. Hal-hazırda Aztəsərrüfat MMC də direktor vəzifəsində fəaliyyətimi davam etdirirəm.



## ELŞAD FƏRZƏLİYEV

**COCA-COLA ŞİRKƏTİNİN AVRASİYA VƏ YAXIN ŞƏRQ REGİONU ÜZRƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR, KOMMUNİKASİYALAR VƏ DAYANIQLI İNKİŞAF ÜZRƏ BAŞ DİREKTORU**
**THE COCA-COLA COMPANY**

Elşad Fərzəliyev 2014-cü ildən etibarən Coca-Cola şirkətinin Avrasiya regionunda dövlət qurumları ilə əlaqələrin qurulması, şirkətin kommunikasiya və dayanıqlı inkişaf strategiyasının idarə edilməsi üzrə məsul şəxs olaraq fəaliyyət göstərir. 20 illik peşəkar karyerasında bir sıra beynəlxalq təşkilat və şirkətlərlə çalışıb. Hazırda, həm də Azərbaycan-Amerika Ticarət Palatasının FMCG Komitəsinin sədridir. Elşad Fərzəliyev Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur və ABŞ-nin Denver Universitetindən Beynəlxalq Münasibətlər üzrə magistr dərəcəsi alıb.

---



## PƏRVİZ YUSİFOV

**ƏMƏLİYYATLAR ÜZRƏ QRUP MENECERİ**
**AGRO FOOD INVESTMENTS MMC**

Pərviz Yusifov 21 aprel 1987-ci ildə Azərbaycanın Göyçay şəhərində anadan olub. 2004-cü ildə orta məktəbi bitirdikdən sonra akademik fəaliyyətə başlayıb. 2008-ci ildə Gəncə Dövlət Universitetinin "Ətraf Mühitin Mühafizəsi və Təbii Sərvətlərdən Səmərəli İstifadə Olunması" ixtisası üzrə bakalavr dərəcəsi alıb. Əlavə təhsil olaraq, 2012-ci ildə Macarıstanın Pannonia Universitetində "Kənd Təsərrüfatı Mühəndisliyi" üzrə magistr dərəcəsinə yiyələnib. Pannonia Universitetində təhsilini davam etdirdiyi müddətdə O, dayanıqlı İnkişaf ixtisası üzrə Erasmus tələbəsi (təcrübə mübadiləsi çərçivəsində) olaraq İsveçin Mälardalen Universitetində biliklərini zənginləşdirib. Bundan əlavə, Azərbaycan Dövlət Aqrar Universitetində "Ekologiya" ixtisası üzrə ikinci magistratura pilləsində təhsil alaraq biliklərini genişləndirmişdir. Pərviz Yusifov, həmçinin Layihə İdarəetmə İnstitutu (PMI) tərəfindən təqdim edilən Layihə İdarəetmə Mütəxəssisi (PMP) sertifikatına malikdir. Kənd təsərrüfatı sahəsində on ildən artıq təcrübəyə malik Pərviz Yusifov "Agro Food İnvestments" MMC-də Əməliyyatlar Üzrə Qrup Meneceri vəzifəsində çalışır. O, Azərbaycanın müxtəlif kənd təsərrüfatı şirkətlərində müasir bağçılıq yanaş malarını uğurla tətbiq edib. Pərviz Yusifov məhsuldarlığı artırmaq, innovativ strategiyaları tətbiq etmək və davamlı kənd təsərrüfatı təcrübələrini təbliğ etmək bacarığı ilə seçilir. Layihələrin idarə edilməsi və komanda quruculuq bacarıqları sayəsində nəzərəçarpacaq nəticələr əldə etmişdir.

---



## VÜQAR MİRZALIYEV

**TEXNİKİ İŞLƏR ÜZRƏ MENECER**
**PMD HOSPITALITY**

Vüqar Mirzalıyev Sadəddin oğlu, 12 yanvar 1972-ci ildə Qəbələ rayon, Vəndam qəsəbəsində anadan olmuşam. Orta təhsili Qəbələ rayon, Vəndam 1 nömrəli orta məktəbində almışam.

Texniki Sub-bakalavr təhsilimi Bakı Rabitə Kollecində 1989-1995-ci illərdə, Biznesin İdarəedilməsi üzrə Bakalavr təhsilimi 2011-2017-ci illərdə Anadolu Universitetində almışam. Hərbi xidməti SSRİ Hərbi Hava Qüvvəlri bölməsinin Kola yarımadasının texniki təmir emalatxanasında 1990-1992- ci illərdə başa vurmuşam. Profesional əmək fəaliyyətimi "Baku Hotel Company" şirkətinin "Hyatt Regency Baku" otelində 1997-ci ildə Elektrik və Elektronika mühəndisi vəzifəsində başlamışam.

1998-2003 - Baş Elektrik və Elektronika mühəndisi, 2003-2008 - "Hyatt Regency Baku", "Hyatt International Center" və "Park Hyatt Baku" otel kompleksində Mühəndis menecer, 2008-2021 - Baş Mühəndis müavini və Layihə Meneceri vəzifəsində çalışmışam. Bu müddətdə "Hyatt Regency Kiev", "Park Hyatt Zurich", "Hyatt Regency Bishkek", "Grand Hyatt Doha", "Hyatt Regency Dushanbe" otellərində müxtəlif tarixlərdə qisa və uzunmüddətli dəstək və açılış layihələrində iştirak etmişəm.

Eyni zamanda fəaliyyət sahələrim üzrə bir sıra Beynəlxalq təlimlərdə iştirak etmişəm və sertifikatlar almışam. 2022-ci ildən 2023-cü ilin əvvəlinə qədər "Hyatt Regency Dushanbe" otelində Baş mühəndis və MDB Hyatt otelləri üzrə Funksional Rəhbər vəzifəsində çalışmışam. 2023-cü il, 17 yanvar tarixindən PMD Hospitality şirkətində Texniki işlər üzrə menecer vəzifəsində çalışıram.

Azərbaycan, Türk, İngilis, Rus və Fransız dillərinə sahibəm.



## ƏHMƏD MƏMMƏDOV

**BAŞ MÜTƏXƏSSİS, TEXNİKA ELMLƏRİ DOKTORU, ƏMƏKDAR MÜHƏNDİS**
**"HİDROLOQ" MMC**

Əhməd Şirin oğlu Məmmədov 1959-cu ilin 16 noyabr tarixində Azərbaycan Respublikasının Cəbrayıl rayonunda anadan olmuşam. Azərbaycan İnşaat Mühəndislər İnstitutuna (1976-81) "Çay hidrotexniki qurğuları və su elektrik stansiyasının tikintisi" ixtisası üzrə bitirmişəm.
